16 mart 2022 №21 (1894)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Fikrət Əmirovun 100 illiyi, Xurşidbanu Natəvanın 190 illiyi qeyd ediləcək

2022-ci ildə Azərbaycanın dünya şöhrətli bəstəkarı, Dövlət mükafatları laureatı Fikrət Əmirovun (1922-1984) anadan olmasının 100 ili tamam olur. Fikrət Əmirovun 100 illiyi bu il üçün UNESCO-nun yubileylər proqramına da daxil edilib. Prezident İlham Əliyev martın 15-də böyük bəstəkarın yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb. Sərəncamda Mədəniyyət Nazirliyinə, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, yubileyə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Dövlət başçısı martın 14-də Azərbaycan ədəbi fikrinin görkəmli siması, şairə, xeyriyyəçi Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyi haqqında da sərəncam imzalayıb. Sərəncama əsasən, Mədəniyyət Nazirliyinə, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xurşidbanu Natəvanın 190 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək həvalə olunub.

səh. 2

## Azad edilmiş torpaqların bərpası ilə ölkəmizin dayanıqlı inkişafı təmin olunacaq

Bizim siyasətimiz ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir.

Prezident İlham Əliyev bu fikri martın 15-də Qaradağ Günəş Elektrik Stansiyasının təməlinin qoyulması ilə bağlı keçirilən mərasimdə vurğulayıb. Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycanın işğaldan azad edilmiş əraziləri 10 min kvadrat kilometrdən çoxdur və bu torpaqlarda bərpa-quruculuq işlərini aparmaq üçün ölkənin energetika sahəsində imkanları da artırılmalıdır.

səh. 2

## Hökumətin 2022-ci il üçün vəzifələri

İşğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq işlərinin həyata keçirilməsi, tarixi, mədəni irsin bərpası, orada əhali üçün layiqli həyat şəraitinin yaradılması dövlətimizin başçısı tərəfindən hökumət qarşısında qoyulan əsas prioritetlər sırasındadır.



Baş nazir Əli Əsədov martın 15-də Milli Məclisin iclasında Nazirlər Kabinetinin 2021-ci ildə fəaliyyəti haqqında hesabatı təqdim edərkən belə deyib.

Baş nazir qeyd edib ki, Prezidentin tapşırığına əsasən, bu ilin mart ayının əvvəlində Hökumət və Əlaqələndirmə Qərargahının üzvləri Qarabağ bölgəsinə səfər edib: "Biz bərpa-quruculuq işlərinin miqyasının, keyfiyyətinin və yüksək icra sürətinin şahidi olduq. İşğaldan azad edilmiş şəhər və kəndlərimiz artıq göz önündə sürətlə dirçəlir, daha gözəl görkəmdə öz əvvəlki simasına qayıdır".

Əli Əsədov Azərbaycanın incisi, mədəniyyət paytaxtımız Şuşada həyata keçirilən işləri xüsusi qeyd edib.

davamı səh. 2-də

## "Şuşa söhbətləri" – mədəniyyət paytaxtımızı necə görürük?

### "Bütün layihələrdə Şuşanın təbliğ olunması əsas yer tutacaq"

Martın 15-də Beynəlxalq Muğam Mərkəzində Mədəniyyət Nazirliyinin "Şuşa İli" münasibətilə həyata keçirdiyi daha bir təşəbbüsün – "Şuşa söhbətləri" (Shusha talks) layihəsinin təqdimatı keçirildi.




Tədbiri açıq elan edən Mədəniyyət Nazirliyi Media və kommunikasiya şöbəsinin müdiri Məryəm Qafarzadə layihə haqqında məlumat verdi. Bildirdi ki, Prezident İlham Əliyev tərəfindən Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 270 illiyi münasibətilə ölkəmizdə "Şuşa İli" elan edilib: "Mədəniyyət Nazirliyi olaraq məqsədimiz Şuşa mədəniyyətinin dirçəlişi üçün bir sıra istiqamətlərdə layihələr həyata keçirməkdir. Layihənin əsas məqsədi Qarabağın, onun tacı Şuşanın dirçəlişi ilə bağlı mədəniyyət sahəsində tanınmış şəxslərin fikirlərini öyrənməkdir".

Şöbə müdiri qeyd etdi ki, layihə çərçivəsində ictimaiyyət nümayəndələri, mədəniyyət və incəsənət xadimləri, blogerlər və yaradıcı sənayenin nümayəndələrinin "Şuşa İli" ilə bağlı nazirliklə əməkdaşlığını genişləndirmək məqsədilə görüşlər keçiriləcək və fikir mübadiləsi aparılacaq.

Təqdimat mərasimində çıxış edən mədəniyyət naziri Anar Kərimov layihənin əhəmiyyətindən söz açdı. Diqqətə çatdırdı ki, "Şuşa İli"nə həsr olunan layihə Azərbaycanın qədim mədəniyyət mərkəzlərindən olan Şuşanın tanıdılmasına yönəlib: "Bütün tədbirlərimizdə Şuşanı ana xətt kimi təbliğ etməliyik. 2022-ci ilin Şuşa soraqlı, bayram əhval-ruhiyyəli olmasını istəyirik. Bu il Şuşa şəhərinin təməlinin qoyulmasının 270 illiyi qeyd olunacaq. Şuşanın əhəmiyyəti təkcə onun tarixində yox, həm də Azərbaycan mədəniyyətinin beşiklərindən olmasındadır. Nazirliyin bütün layihələrində Şuşanın əhəmiyyətinin həm Azərbaycanda, həm də beynəlxalq aləmdə təbliğ olunması əsas yer tutacaq. Şuşa mədəniyyət paytaxtımız olaraq azadlığının ikinci ildönümünü yaşamaqdadır. Bu qüruru bizə yaşatdığı üçün Ali Baş Komandana, Ordumuza təşəkkür edirik. İstəyirik ki, "Şuşa söhbətləri" layihəsi ilə qədim şəhərimizin dəyərlərini təbliğ edək".

davamı səh. 2-də

## Bölgələrin mədəni inkişafı yerlərdə təşəbbüskarlıqdan da asılıdır

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimov 10-11 mart tarixlərində Lənkəran və Astara rayonlarında səfərdə olub. Səfər zamanı nazir bir sıra mədəniyyət müəssisələrinin fəaliyyəti, tarixi-mədəni abidələrin vəziyyəti ilə tanış olub, mədəniyyət işçiləri ilə görüşlər, həmçinin vətəndaşların qəbulunu keçirib.

Anar Kərimov Lənkərandakı Heydər Əliyev Mərkəzinə, Lənkəran Tarix-Diyarşünaslıq Muzeyinə, Həzi Aslanovun Ev-Muzeyinə baş çəkib. Dairəvi qala, Böyük bazar məscidi, Kiçik bazar və Hacı Mirzə hamamları, Lənkəran mayakına baxış keçirib.

Nazir Lənkəran şəhər Cəfər Cabbarlı adına 1 nömrəli Uşaq musiqi məktəbi ilə də tanış olub. Məlumat verilib ki, təhsil ocağı 1957-ci ildən fəaliyyət göstərir. Məktəbdə müxtəlif ixtisaslar üzrə tədrislə yanaşı, xalq çalğı alətləri ansamblı, "Buta" folklor ansamblı, xor fəaliyyət göstərir. "Buta" ansamblının ifasında "Qədim düyü bayramı" kompozisiyası və xor kollektivinin çıxışı təqdim olunub.



Mədəniyyət naziri Lənkəran şəhər Mərkəzi Kitabxanası və Həqiqət Rzayeva adına 2 nömrəli Uşaq musiqi məktəbində olub, təhsil ocağının foyesində müəllim Mirəhməd Kərimovun rəhbərlik etdiyi xor kollektivinin ifasını dinləyib.

Anar Kərimov Milli Teatr Günündə N.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrına da baş çəkib, teatrda yeni səhnəyə qoyulmuş "Haqqın 44 günü" tamaşasından bir parçaya baxıb.

Həmçinin Lənkəran şəhər Mədəniyyət Mərkəzinə, burada sənətkarların əl işlərinə baxış keçirilib.

Mədəniyyət Mərkəzində nazir Anar Kərimovun yerli mədəniyyət işçiləri ilə görüşü olub.

Nazir diqqətə çatdırıb ki, səfərin əsas məqsədi regionlarda mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olmaqla yanaşı, mövcud imkanları müəyyənləşdirmək, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən şəxsləri nazirliyin prioritetləri, aparılan islahatların mahiyyəti barədə məlumatlandırmaqdır.

Görüşdə mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, bununla bağlı təkliflər dinlənilib. Mədəniyyət sahəsində çalışanların peşəkarlıq səviyyəsinin, təşəbbüskarlığının artırılmasının vacibliyi xüsusi vurğulanıb. Nazir problemlərin aradan qaldırılması üçün tapşırıq və tövsiyələrini verib.

Görüşdən sonra Mədəniyyət Mərkəzinin konsert proqramı təqdim olunub. Mərkəzin "Babalar" xor və rəqs qrupu, "Ay lolo" folklor qrupu çıxış edib. C.Cabbarlı adına 1 nömrəli Uşaq musiqi məktəbi şagirdlərinin ifasında "Azərbaycan" musiqili kompozisiyası da maraqla qarşılanıb.

davamı səh. 4-də

## Bakıda türkiyəli rəssamın "Qarabağ atları" sərgisi

Müasir İncəsənət Muzeyində türkiyəli rəssam və dekorativ-tətbiqi sənət ustası Binnur Ersayın "Qarabağ atları" adlı fərdi sərgisi açılıb. Sərgi Milli Məclisin Mədəniyyət komitəsi və "Nəfəs" İctimai Birliyinin dəstəyi ilə gerçəkləşib.

Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva Binnur Ersayın Türkiyə-Azərbaycan münasibətlərinə önəmli sənət töhfəsi verdiyini, Qarabağ atları ilə bağlı maraqlı əsərlər yaratdığını söyləyib.

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev təsviri sənəti bəşəriyyətin möcüzələrindən adlandırıb. Bildirib ki, insanlar ilk dəfə olaraq gördüyünü, düşündüyünü rəsmlərdə əks etdirib. Elnur Əliyev sərgini Türkiyə-Azərbaycan qardaşlığının daha bir rəmzi kimi səciyyələndirib.

Azərbaycan Rəssamlar İttifaqının katibi, Xalq rəssamı Ağaəli İbrahimov, İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) Səbinə Əliyeva çıxışlarında sərginin əhəmiyyətini qeyd edib, rəssama uğurlar arzulayıblar.



Sonda Binnur Ersay sərginin təşkilatçılarına və sənətsevərlərə təşəkkürünü bildirib.

Rəssamın 60-dan çox əsərinin yer aldığı sərgi martın sonunadək davam edəcək.



## Filarmoniyada bayram konserti

M.Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Novruz bayramına həsr olunmuş konsert keçirilib.

Fikrət Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının (bədii rəhbər – Xalq artisti Ağaverdi Paşayev) çıxışı bayram əhval-ruhiyyəsi, xoş ovqat yaradıb.

Əməkdar artist Almaz Orucova, Taleh Yəhyayev və Rəvanə Qurbanovanın ifasında xalq və bəstəkar mahnıları səsləndirilib.

Konsert tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

## Sirk truppasının "Novruz sədası" yürüşü

Novruzun müjdəsi olan ilaxır çərşənbələrdən sonuncusu – Torpaq çərşənbəsi də yurdumuza qədəm qoydu.

Əski inanclara görə, torpağın oyanması ilə təbiət bütünlüklə yenilənir. Çünki varlığın əsasını təşkil edən su, od, yel özlərinin təsdiqini torpaqda tapırlar. Torpaq çərşənbəsi müxtəlif ayinləri ilə digər üç çərşənbəyə bənzəsə də, hər zaman xüsusi təntənə ilə qeyd olunub.




Artıq ikinci ildir doğma Qarabağda, otuz ilin ayrılığından sonra ayağımız dəyən azad torpaqlarımızda da çatılan ilaxır çərşənbənin tonqalları istisini bu torpaqlara da bəxş etdi...

Bakı Dövlət Sirki ilaxır çərşənbə və Novruz bayramının gəlişi münasibətilə "Novruz sədası" adlı yürüş təşkil edib.

Sirkin binasının qarşısından başlayan yürüşdə klounlar, milli geyimdə artistlər, Novruz personajları iştirak ediblər.

Yürüş boyu sirkin milli truppası və orkestr heyəti çıxış edib. Orkestrin repertuarında Azərbaycan və xarici musiqilərin sintezinə üstünlük verilib. Yürüş paytaxt sakinləri tərəfindən maraqla qarşılanıb.

Milli Dram Teatrında çoxdan gözlənilən premyera



səh. 3

Bakı Beynəlxalq Kitab Sərgisinin ilk fəxri qonaq ölkəsi Türkiyə olacaq

səh. 3



Sumqayıtda "Qarabağa dönüş" sərgisi

səh. 4




# Azad edilmiş torpaqların bərpası ilə ölkəmizin dayanıqlı inkişafı təmin olunacaq

Bizim siyasətimiz ölkəmizin bundan sonrakı sürətli inkişafını təmin etmək, əlbəttə ki, ilk növbədə, azad edilmiş torpaqları bərpa etmək, eyni zamanda, ölkəmizin dayanıqlı inkişafını təmin etməkdir.

Prezident İlham Əliyev bu fikri martın 15-də Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti tərəfindən inşa ediləcək Qaradağ Günəş Elektrik Stansiyasının təməlinin qoyulması ilə bağlı Gülüstan Sarayında keçirilən mərasimdə çıxışı zamanı vurğulayıb.

Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycanın işğaldan azad edilmiş əraziləri 10 min kvadrat kilometrdən çoxdur və bu torpaqlarda bərpa-quruculuq işlərini aparmaq üçün ölkənin energetika sahəsində imkanları da artırılmalıdır. "Bu, aksiomadır ki, elektrik enerjisi olmadan heç bir ölkə inkişaf edə bilməz. Bu, birinci şərtdir, bu, əsas şərtdir. Xoşbəxtlikdən Azərbaycanda zəngin neft və qaz yataqları vardır və bu yataqların istismarı və işlənilməsi uğurla gedir" deyən İlham Əliyev əlavə edib ki, bununla yanaşı alternativ və bərpaolunan enerji mənbələri də işə salınır. Prezident bildirib ki, 230 MVt generasiya gücü olacaq Qaradağ Günəş Elektrik Stansiyası bu imkanları daha da artıracaq.

"Masdar" şirkəti bizim üçün dost ölkəni – Birləşmiş Ərəb Əmirliklərini təmsil edir. Bizim ikitərəfli münasibətlərimiz çox yüksək səviyyədədir. Həm siyasi, həm iqtisadi, həm də digər sahələrdə uğurla əməkdaşlıq edirik. Ticarət əlaqələrimiz artır, turizm sahəsində çox böyük imkanlar var və şadam ki, bu sahədə də artım göz qabağındadır. Bir sözlə, Birləşmiş Ərəb Əmirlikləri ilə Azərbaycan arasında əlaqələrin böyük perspektivi var. Şadam ki, bərpaolunan enerji istehsalı sahəsində də əməkdaşlığa bu gün start verilir", – deyə İlham Əliyev bildirib.

Prezident xatırladıb ki, bu ilin əvvəlindən energetika sahəsində çox önəmli addımlar atılıb. Yanvar ayında Səudiyyə Ərəbistanını təmsil edən "ACWA Power" şirkəti ilə 240 meqavat gücündə külək elektrik stansiyasının təməli qoyulub, fevralda "Azərenerji" tərəfindən inşa edilmiş 385 meqavat gücündə elektrik stansiyasının açılışı olub, indi isə 230 meqavat gücündə günəş elektrik stansiyasının təməli qoyulur. Bu, ümumilikdə 855 meqavat gücündə yeni generasiya gücü deməkdir: "Əminəm ki, 2023-cü ildə əlavə güclər bizim ümumi sistemimizə daxil ediləcəkdir və bu, işin sadəcə olaraq başlanğıc hissəsidir. Çünki bərpaolunan enerji növlərinin inkişafı bizim üçün prioritet məsələdir. Biz uzun illər bu məsələnin həlli ilə bağlı çalışırıq və bu gün real nəticələr görürük. Bütövlükdə Azərbaycanda mövcud olan sabitlik, iqtisadi inkişaf, qonşu ölkələrlə münasibətlərimiz, nəqliyyat, kommunikasiyalar, elektrik xətləri nöqteyi-nəzərdən qonşu ölkələrlə sıx təmaslar unikal bir vəziyyət yaradır ki, Azərbaycan nəinki xam neft, neft məhsulları və təbii qaz, eyni zamanda, elektrik enerjisinin böyük istehsalçısı və ixracatçısı olacaqdır".

Dövlət başçısı qeyd edib ki, bu sahədə böyük potensial işğaldan azad edilmiş ərazilərdədir. Artıq hesablamalar aparılıb və günəş, külək enerji növlərinin istehsalı təxminən 9-10 min meqavata çata bilər. İlkin addımlar atılır, BP şirkəti ilə generasiya gücü 200 meqavatdan çox olan günəş elektrik stansiyasının inşası ilə bağlı danışıqlar gedir. Digər böyük şirkətlər bu bölgəyə maraq göstərirlər. Prezident bildirib ki, otuz ilə yaxın davam edən işğal dövründə ermənilər bu torpaqlardakı bütün binaları, tarixi, dini abidələrimizi dağıtmaqla bərabər, bütün infrastrukturu da məhv ediblər. O cümlədən işğalçılar Kəlbəcər və Laçın rayonlarını tərk etməyə məcbur olarkən 30-dan çox su elektrik stansiyasını sıradan çıxarıblar. Diqqətə çatdırılıb ki, 2021-ci ildə 4 su elektrik stansiyasını bərpa etmişik. Onların ümumi generasiya gücü 20 meqavatdır. Bu il isə 5 su elektrik stansiyasının yenidən qurulması planlaşdırılır və bu stansiyaların generasiya gücü 27 meqavat olacaq. Prezident vurğulayıb ki, azad edilmiş ərazilərdə günəş və külək elektrik stansiyalarının yaradılması üçün daha böyük potensial var.

Mərasimdə Azərbaycanda bərpaolunan enerji sahəsində görülən işlər barədə videoçarx nümayiş etdirilib. Sonra Azərbaycan Prezidenti İlham Əliyev və Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei stansiyanın təməlini qoyublar.

## Xurşidbanu Natəvanın 190 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ildə Azərbaycan bədii fikrinin görkəmli siması Xurşidbanu Natəvanın anadan olmasının 190 ili tamam olur.

Qarabağ xanlığının sonuncu varisi Xan qızı Natəvan mənbəyini doğma təbiətin gözəlliklərindən alan ədəbi yaradıcılığını xalqa məhəbbət nümunəsinə çevrilən xeyriyyəçilik fəaliyyəti ilə ahəngdar şəkildə uzlaşdırmış, yaşadığı Şuşa şəhərinin abadlığı və mədəni həyatının canlılığı üçün böyük zəhmət sərf etmiş, humanist təbiətinə və nəcibliyinə görə tanınıb fədakarlıq və mərhəmət mücəssəməsi kimi sevilmişdir. Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. İncəsənətin ayrı-ayrı növlərinə dərindən bələd olan sənətkar Şərq poetik ənənələrinə sədaqətlə yazıb-yaratmış, mənəvi saflığa çağıran və insana məhəbbət, həqiqətə inam hissi aşılayan, zərif lirizmə malik və parlaq bədii boyalarla zəngin bir irs qoyub getmişdir. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplamış və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərmişdir.

Xurşidbanu Natəvanın yaradıcılığı həmişə diqqət mərkəzində saxlanılmış, xatirəsinin əbədiləşdirilməsi istiqamətində ölkəmizdə bir sıra tədbirlər həyata keçirilmiş, o cümlədən 1960-cı ildə Bakıda şairənin heykəli, 1982-ci ildə Ulu Öndər Heydər Əliyevin iştirakı ilə Şuşada büstü ucaldılmışdır. Ermənistan silahlı qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərək buradakı tarixi-memarlıq və mədəniyyət abidələrini vandalcasına dağıdarkən güllə ilə zədələdikləri həmin büst 44 günlük Vətən müharibəsində şəhər şanlı Azərbaycan Ordusu tərəfindən azad olunduqdan sonra əzəli məkanına qaytarılmışdır. Bu gün Natəvanın Şuşada yenidən ucalan və möhtəşəm Zəfərimizin təntənəsini nümayiş etdirən büstü, eyni zamanda, xalqımızın milli mədəni irsə qayğısının rəmzi və mənəvi dəyərlərə ehtiramının təzahürüdür.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli şairə və xeyriyyəçi Xurşidbanu Natəvanın 190 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Yazıçılar Birliyinin təkliflərini nəzərə almaqla, Xurşidbanu Natəvanın 190 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 mart 2022-ci il**

## Fikrət Əmirovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2022-ci ilin noyabr ayında görkəmli bəstəkar, tanınmış ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü Fikrət Məşədi Cəmil oğlu Əmirovun anadan olmasının 100 ili tamam olur.

Azərbaycan bəstəkarlıq məktəbinin böyük nümayəndəsi, simfonik muğam janrının banisi Fikrət Əmirov rəngarəng yaradıcılıq palitrasına malik qüdrətli sənətkar kimi mədəni sərvətlər xəzinəmizə misilsiz töhfələr bəxş etmişdir. Gücünü doğma torpaqdan alan, milli zəminə bağlı bəstəkar ecazkar xalq musiqisi və muğam ənənələrini müasir musiqi texnikası ilə uğurlu şəkildə birləşdirərək, neçə-neçə dəyərli opera, balet, simfoniya, mahnı, romans və kamera-instrumental əsər meydana gətirmişdir. Fikrət Əmirovun üslubuna xas lirik-romantik boyaların bütün əlvanlığı ilə öz əksini tapdığı bu müxtəlif janrlı sənət nümunələrində milli ruh, fəlsəfi-psixoloji dərinlik və melodik gözəllik hakimdir. Həmin əsərlər dünyanın bir sıra ölkələrindəki mötəbər konsert salonlarında məşhur orkestrlərin ifasında müvəffəqiyyətlə səslənmiş və müəllifinə geniş coğrafiyada şöhrət qazandırmışdır. Yüz illiyinin UNESCO-nun 2022–2023-cü illər üzrə görkəmli şəxsiyyətlərin və əlamətdar hadisələrin yubileyləri proqramına daxil edilməsi Fikrət Əmirov sənətinə beynəlxalq miqyasda yüksək qiymət verilməsinin təzahürüdür. Fikrət Əmirovun vətənpərvərliyə səsləyən, daim mənəvi zənginlik aşılayan və bəşəri ideallar tərənnüm edən, nailiyyətlərlə zəngin irsi Azərbaycan musiqi sənəti salnaməsinin ən parlaq səhifələrindəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xüsusi xidmətləri olan görkəmli bəstəkar Fikrət Əmirovun 100 illik yubileyinin keçirilməsini təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Bəstəkarlar İttifaqının təkliflərini nəzərə almaqla, Fikrət Əmirovun 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 mart 2022-ci il**

## "Şuşa söhbətləri" – mədəniyyət paytaxtımızı necə görürük?

### "Bütün layihələrdə Şuşanın təbliğ olunması əsas yer tutacaq"

*əvvəli səh. 1-də*

"Şuşa İli"nin şəhərin tarixi-mədəni zənginliklərinin öyrənilməsi və tanıdılması baxımından böyük imkanlar yaradacağını deyən Anar Kərimov layihənin uğurundan asılı olaraq növbəti illərdə də davam etdirməyi






düşündüklərini vurğuladı: "Burada vətəndaş cəmiyyətinin iştirakı çox önəmlidir. Layihəyə memarlar, tarixçilər, musiqiçilər və sənətin digər sahələrini təmsil edən insanlar dəvət olunacaq. Onlara öz fikir və təkliflərini bölüşmək imkanı yaradılacaq. Şuşanın dəyərləri mövzusunda ictimai müzakirələr təşkil olunacaq. Bu bir başlanğıcdır. Əsas məqsəd dialoqun yaradılmasıdır. Cənab Prezident tərəfindən "Şuşa İli"ndə Xurşidbanu Natəvanın 190 illiyinin keçirilməsi ilə bağlı sərəncam imzalandı. Bu sərəncamın icrasında Mədəniyyət Nazirliyinin üzərinə böyük vəzifələr düşür. Bununla bərabər, ictimaiyyətin fikri də önəmlidir. "Şuşa söhbətləri" layihəsində biz sizlərin bu sərəncamların icrası ilə bağlı layihələrdə və proseslərdə müvafiq tövsiyə və təkliflərinizi nəzərə alacağıq".

Anar Kərimov çıxışının sonunda tədbir iştirakçılarını Novruzun sonuncu çərşənbəsi – Torpaq çərşənbəsi münasibətilə təbrik etdi, cansağlığı və firavanlıq arzuladı. Nazir hər kəsi layihənin ictimai müzakirəsində fəal iştirak etməyə çağırdı.

Daha sonra Məryəm Qafarzadə "Şuşa söhbətləri" layihəsi ilə bağlı təqdimat etdi. Layihədə Qarabağın zəngin mədəni irsi, tarixi, ədəbi mühiti, memarlığı, musiqisi və digər sahələr əhatə olunub. Şöbə müdiri həmçinin "Şuşa İli" ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq olunan Tədbirlər Planı haqqında da məlumat verdi.

Əməkdar incəsənət xadimi, tanınmış modelyer Fəxriyyə Xələfova çıxış edərək bildirdi ki, layihədə iştirak üçün kreativ sənayenin nümayəndələri də dəvət olunacaq. Bu həm də bir çox yaradıcı insanlara böyük stimul verəcək. Fəxriyyə Xələfova həmçinin bu mövzuda fəaliyyətindən danışaraq Qarabağın simvolu olan xarıbülbül çiçəyinin parçalara köçürülməsi yolu ilə geyim kolleksiyası yaratdığını da qeyd etdi.

Dünya şöhrətli azərbaycanlı fotojurnalist Rza Diqqəti (Reza Deqati) foto sahəsində Şuşaya töhfələrindən söz açdı. O, foto sənəti vasitəsilə mədəniyyəti təbliğ etməyin mümkün olduğunu diqqətə çatdırdı.

Daha sonra tədbir müzakirələrlə davam etdi. Xalq artistləri Nurəddin Mehdixanlı, Mənsum İbrahimov, Əməkdar mədəniyyət işçisi Rahib Azəri, musiqiçi Zəhra Bədəlbəyli, Şuşanın azad olunmasında iştirak edən döyüşçülərdən Zaur Hüseynov, Əməkdar artist Tahir İmanov Şuşaya səfər təəssüratları və layihə ilə bağlı təklif və düşüncələrini bölüşdülər.

Qeyd edək ki, layihə çərçivəsindəki müzakirələrin Şuşada da keçirilməsi planlaşdırılır.

**Lalə Azəri**

## Hökumətin 2022-ci il üçün vəzifələri

### Azad edilmiş ərazilərdə tarixi-mədəni irsin bərpası prioritetlər sırasındadır

*əvvəli səh. 1-də*

Bildirilib ki, bu il qədim şəhərin 270 illiyi tamam olur. Dövlət başçısının 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncamı ilə verilmiş tapşırığa əsasən, Nazirlər Kabineti tərəfindən tədbirlər planı hazırlanıb və təsdiq edilib.

Vurğulanıb ki, işğaldan azad edilmiş ərazilərdə bərpa-yenidənqurma işləri Prezidentin daimi nəzarəti altındadır. Azad olunmuş ərazilərin bərpası və yenidən qurulması ilə bağlı 2021-ci ilin dövlət büdcəsindən ayrılmış 2,2 milyard manat vəsait, demək olar ki, tam (99,4 faiz) istifadə olunub. Cari ilin dövlət büdcəsində bu məqsədlər üçün eyni həcmdə (2,2 milyard manat) vəsait nəzərdə tutulub.

Ötən il istifadəyə verilən Füzuli Beynəlxalq Hava Limanı, Zəfər yolu (Füzuli-Şuşa), hazırda inşası aparılan Zəngilan və Laçın beynəlxalq hava limanları və digər mühüm avtomobil, dəmir yol və sosial infrastruktur layihələri bölgənin inkişafına əhəmiyyətli təkan verir.

Dövlət başçısının 2021-ci il 7 iyul tarixli fərmanına əsasən, iqtisadi rayonların yeni bölgüsü təsdiqlənib, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü ilə gündəmə gələn Zəngəzur dəhlizi Azərbaycanın həm tarixi nailiyyəti, həm də böyük siyasi qələbəsidir. Hesabat dövründə Zəngəzur dəhlizinin gerçəkləşməsi üçün əməli tədbirlər görülüb və davam etdirilməkdədir. Martın 11-də İran İslam Respublikasının ərazisindən keçməklə Azərbaycan Respublikasının Şərqi Zəngəzur iqtisadi rayonu ilə Naxçıvan Muxtar Respublikası arasında yeni kommunikasiya bağlantılarının yaradılması haqqında memorandumunun imzalanması bu prosesə mühüm töhfə verəcək.

Hesabatda qeyd olunub ki, işğaldan azad olunmuş torpaqlarda 2021-ci ildə ümumilikdə 20 min hektardan (200 kvadrat kilometr) çox ərazi minalardan və partlamamış hərbi sursatlardan təmizlənib. Bu il minalardan təmizlənən ərazilər 2 dəfədən artıq sahəni əhatə edəcək.

Hökumətin "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndan irəli gələn əsas prioritet vəzifələri diqqətə çatdıran Baş nazir bu sırada iqtisadiyyatın şaxələndirilməsi və rəqabət qabiliyyətinin artırılması; makroiqtisadi və maliyyə sabitliyinin qorunması; xərclərin optimallaşdırılması və qənaət rejimində istifadəsi; biznes mühitinin yaxşılaşdırılması və struktur dəyişikliklərinin sürətləndirilməsi; antiinhisar siyasətinin, daxili bazarda qiymət manipulyasiyası üzərində nəzarətin gücləndirilməsi; qlobal ərzaq bazarlarında bahalaşmanın ölkənin ərzaq təminatına mənfi təsirinin qarşısının alınması və ərzaq təhlükəsizliyinin təmin olunması; rəqəmsal iqtisadiyyatın və innovasiyaların davamlı inkişafı kimi istiqamətləri qeyd edib.

Bildirib ki, işğaldan azad edilmiş torpaqların kənd təsərrüfatı potensialı ölkəmizin iqtisadi inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Dövlət başçısının tapşırığına uyğun olaraq azad edilmiş torpaqların təxminən 100 min hektarında əkin işlərinin aparılması ərzaq təhlükəsizliyini, həm də kənd təsərrüfatı emalı üzrə fəaliyyət sahələrinin yaradılması bu sektorda artımı dəstəkləyəcək.

Əli Əsədov çıxışında Ukraynadakı hadisələrin ölkəmizə mümkün təsirləri ilə bağlı da fikirlərini bölüşüb. Bildirib ki, qonşu ölkələrdə cərəyan edən hadisələr Azərbaycana təsirsiz ötüşmür. Ukraynada yaşayan və işləyən soydaşlarımızın təxliyəsi məsələsi diqqətimizdədir. Prezidentin tapşırığına əsasən, bu prosesə bütün aidiyyəti qurumlar cəlb olunub və soydaşlarımızın təxliyəsi, həmçinin təhlükəsizliyinin təmin olunması istiqamətində bütün çətinliklərə baxmayaraq, təxirəsalınmaz tədbirlər görülür. Ukraynada müharibə başlayandan bu günədək ölkəmizə 9246 nəfər təxliyə edilib. Bu xüsusda digər narahatedici məqamlar – nəqliyyat-logistika, qiymət artımı, idxal olunan məhsullar və müxtəlif qadağalarla bağlı problemlərdir.

## Aşıq Ələsgərin abidəsi ilə bağlı müsabiqənin vaxtı uzadılıb

Aşıq Ələsgərin abidəsinin layihəsinin hazırlanması ilə bağlı müsabiqənin vaxtı martın 30-na qədər uzadılıb.

Xatırladaq ki, ölkə başçısının ötən il noyabrın 30-da imzaladığı sərəncamda Bakı Şəhər İcra Hakimiyyətinə Mədəniyyət Nazirliyi ilə birlikdə Aşıq Ələsgərin abidəsinin ucaldılması ilə bağlı tədbirlərin həyata keçirilməsini təmin etmək tapşırılıb.

Mədəniyyət Nazirliyi Aşıq Ələsgərin Bakı şəhərində ucaldılacaq abidəsinin eskiz layihələrinin hazırlanması üçün heykəltəraşlar arasında açıq müsabiqə elan edib. Dekabrın 23-də elan edilən müsabiqənin 15 mart 2022-ci il tarixinədək başa çatması planlaşdırılmışdı.

# Bu kitablar İraq türkmanlarını Azərbaycan xalqı ilə daha da yaxınlaşdırır

## "İraq-türkman poeziya antologiyası"nın təqdimatı olub

Martın 14-də Milli Kitabxanada görkəmli ədəbiyyatşünas, Əməkdar elm xadimi, professor Qəzənfər Paşayevin "İraq-türkman poeziya antologiyası" kitabının təqdimat mərasimi keçirilib.

Mədəniyyət Nazirliyi və Milli Məclisin Mədəniyyət komitəsi ilə birgə təşkil edilən tədbiri Milli Kitabxananın direktoru, professor Kərim Tahirov açaraq Qəzənfər Paşayevin Azərbaycan elminə verdiyi töhfələrdən danışıb. Bildirib ki, təqdimatı keçirilən "İraq-türkman poeziya antologiyası" alimin gərgin əməyinin nəticəsidir. Qəzənfər Paşayev yazdığı kitablarla İraq türkmanlarını Azərbaycan xalqı ilə daha da yaxınlaşdırır: "İnanıram ki, çağdaş İraq-türkman şairlərinin poeziya örnəklərini əhatə edən ikicildlik azərbaycanlı poeziyasevərlərin rəğbətini qazanacaq, tədqiqatçıların diqqət mərkəzində olacaq...".

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev çıxış edərək Qəzənfər Paşayevə kitabın ərsəyə gəlməsinə, eləcə də ədəbiyyatşünaslıq sahəsində tədqiqatlarına görə təşəkkürünü bildirib.




Qeyd edib ki, Qəzənfər müəllimin kitabları milli şüurumuzun, düşüncəmizin formalaşmasında mühüm rol oynayır. Bu kitablar Azərbaycan ədəbiyyatının, mədəniyyətinin öyrənilməsi baxımından çox dəyərlidir.

Milli Məclisin deputatı, Xalq şairi Sabir Rüstəmxanlı qeyd edib ki, Qəzənfər müəllim ömrünü ədəbiyyatşünaslığın bu sahəsinə həsr edib, Kərkük ədəbiyyatına dair neçə-neçə kitabların müəllifidir. Vurğulayıb ki, təqdimatı keçirilən kitab iraqlı qardaşlarımız arasında körpü rolunu oynayır.

Milli Məclisin deputatı, professor Anar İsgəndərov bildirib ki, Azərbaycan-İraq əlaqələrinə dair çox yazılıb, lakin ədəbiyyatımızda "kərküklər kimdir" anlayışını məhz Qəzənfər Paşayev tədqiq edib və bu haqda çoxsaylı kitabların müəllifidir. "İraq-türkman poeziya antologiyası" da ədəbiyyatşünaslar üçün bir qaynaqdır.

Milli Məclisin deputatı, akademik Nizami Cəfərov deyib: "Qəzənfər Paşayev İraq-türkman şairlərinin şeirləri ilə bizi tanış edib. Onun məhz belə bir mövzuya diqqət yetirməsi, kitablar yazması ədəbiyyatşünas tədqiqatçılar üçün qiymətlidir...".

Kitabın müqəddiməsinin müəllifi, Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva çıxış edərək belə bir tədbiri təşkil etdiyinə görə Milli Kitabxananın rəhbərliyinə təşəkkürünü bildirib. O qeyd edib ki, Azərbaycanda İraq türkmanlarının tanıdılması bilavasitə Qəzənfər Paşayevin adı ilə bağlıdır. Bu antologiya alimin ürəkdən bağlı olduğu fəaliyyət sahəsinin yeni səhifəsidir. Antologiya İraq-türkman poeziyasının keçdiyi inkişaf yolunu göstərir.

Azərbaycan Yazıçılar Birliyinin sədr müavini, "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid, Kərkük Mədəniyyət Mərkəzinin sədri Şəmsəddin Kuzəçi və digər çıxış edənlər kitab və müəllifi barədə fikirlərini bölüşüblər.

Qəzənfər Paşayev tədbirin iştirakçılarına və kitabın nəşrində əməyi keçənlərə təşəkkür edib.

Sonda iştirakçılar professor Qəzənfər Paşayevin Milli Kitabxananın fondunda olan kitablarının sərgisi ilə tanış olublar.

# "Mədəni irsin rəqəmsal dövrdə qorunması"

## Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Antalya Diplomatiya Forumunda çıxış edib

11-13 mart tarixində Türkiyənin Antalya şəhərində Diplomatiya Forumu keçirilib. İkinci dəfə təşkil edilən Antalya Diplomatiya Forumu (ADF) çərçivəsində müxtəlif mövzularda panel toplantıları da gerçəkləşib. ADF-də iştirak edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva "Mədəni irsin rəqəmsal dövrdə qorunması" adlı panelə qatılıb.

Günay Əfəndiyeva çıxışında ADF-nin təşkilatçılarına təşəkkür edərək, bildirib ki, dünyanın bir çox yerlərində ciddi hadisələrin baş verdiyi bir vaxtda belə bir platforma diplomatik münasibətlərin inkişafı və üzləşdiyimiz kirtik məsələlərin həlli üçün vasitə kimi görünür. Qeyd edib ki, dünyada dinc yanaşı yaşama, əməkdaşlığın və davamlı inkişafın şərti kimi qarşılıqlı tolerantlıq haqqında biliklərin təkmilləşdirilməsi çox vacibdir. Bu çağırış, özünəməxsus adət-ənənələr sisteminə malik hər bir mədəniyyətin böhrana məruz qaldığı və dəyərlərin transformasiya olunduğu günümüzdə xüsusilə aktuallaşır. Bütün xalqlar dünyamızın kövrəkliyini dərk edir və mədəniyyətini, tarixini gələcək nəsillər üçün qoruyub saxlamağa çalışırlar.

Bu istiqamətdə rəqəmsal texnologiyaların önəminə toxunan Günay Əfəndiyeva qeyd edib ki, yeni texnologiyaların bizə gətirdiyi bu qabiliyyət mədəniyyətlərimizin sürətlə sərhədləri aşmağına şərait yaradır. İstənilən musiqi, kino, teatr və ya digər media bir neçə saniyə ərzində bütün dünyada paylaşılır. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fonduna üzv ölkələrdə də qeyri-maddi mədəni irsin mühafizəsinə və gələcək nəsillərə ötürülməsinə xüsusi diqqət göstərilir.

Mədəni irsin qorunmasında, eləcə də bu sahədə rəqəmsal texnologiyaların tətbiqində Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən layihələri örnək olaraq qeyd edən Günay Əfəndiyeva bildirib ki, hazırda bu bu istiqamətdə başlıca fəaliyyət Azərbaycanın ayrılmaz hissəsi olan Qarabağda otuz ilə yaxın işğal müddətində dağıdılmış və mənimsənilmiş mədəni irsin bərpası ilə bağlıdır.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyəti haqqında məlumat verən Günay Əfəndiyeva, texnoloji irəliləyişlərin təşkilatın işindəki əhəmiyyətini, o cümlədən Türk dünyasının böyük şəxsiyyətlərinin irsinin dünyada yayılmasına imkan verdiyini vurğulayıb. Bildirib ki, xüsusilə COVİD-19 pandemiyası bu yeniliklərin önəmini təsdiqlədi. Bəlkə də bu dövrdə rəqəmsallaşma bizi xüsusi təcriddən xilas etdi, çünki təhsil, sosiallaşma, iş və ümumiyyətlə, həyat onlayn rejimə keçirildi. Fondun prezidenti bu xüsusda həyata keçirdikləri layihələr, o cümlədən məktəblilər üçün "Türk dünyası muzeyləri həftəsi", "Dünyamızı qoruyaq: Türk dünyasının adət-ənənələri" mövzularında uşaq və tələbələr arasında onlayn rəsm və esse müsabiqələri, Nizami Gəncəvinin 880 illik yubileyi ilə bağlı




onlayn konfranslar, şairin "Yeddi gözəl" poemasının elektron versiyada təqdimatı və s. barədə məlumat verib.

Günay Əfəndiyeva çıxışında beynəlxalq təşkilatların nümayəndələri olaraq mədəni irsi qorumaq, öyrənmək, təbliğ etmək və gələcək nəsillərə ötürməklə müxtəlif mədəniyyətlər arasında əlaqələrin yaradılmasının, ortaq nöqtələrin tapılmasının önəmindən də bəhs edib.

Paneldə həmçinin Namibiya beynəlxalq əlaqələr və əməkdaşlıq nazirinin müavini Jenelly Matundu, Bolqarıstanın keçmiş baş naziri Simeon Sakskoburggotski, Türk Dövlətləri Təşkilatı Baş katibinin müavini Ömər Kocaman, Dünya Aramea Şurasının prezidenti Coni Messo çıxış ediblər.

# Bakı Beynəlxalq Kitab Sərgisinin ilk fəxri qonaq ölkəsi Türkiyə olacaq

Xəbər verdiyimiz kimi, Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsi Nəşriyyatlarla iş sektorunun müdiri Xəyal Məmmədov, şöbənin baş məsləhətçisi İslam Hüseynov və Azərbaycan Milli Kitabxanasının əməkdaşı Nazim Azakovdan ibarət heyət Türkiyəyə səfər edib.

Kitabxana və nəşriyyat işi üzrə əməkdaşlıq və təcrübə mübadiləsi məqsədilə gerçəkləşən səfər çərçivəsində Türkiyə Naşirlər Birliyi, Naşirlərin Peşə Birlikləri Federasiyası (YAYFED), Türkiyə Çap Yayın Peşə Birliyi (TBYM), Nəşriyyatların Müəlliflik Hüququ və Lisenziyalaşdırma Peşə Birliyi (YAYBİR) və TÜYAP-ın (Türkiyədə kitab sərgilərinin təşkilatçısı) idarə heyəti ilə görüşlər keçirilib. İki ölkə arasında müvafiq sahə üzrə fikir mübadiləsi aparılıb, əməkdaşlıq perspektivləri və Türkiyənin 8-ci Bakı Beynəlxalq Kitab Sərgisində, Azərbaycanın isə 39-cu İstanbul Beynəlxalq Kitab Sərgisində fəxri qonaq statusunda iştirakına dair təşkilati məsələlər müzakirə olunub.



Nümayəndə heyəti İstanbulda Atatürk Mədəniyyət Mərkəzində keçirilən Naşirlərin Fikir Marafonu və Beynəlxalq Ədəbi Tərcümə Proqramı qaliblərinin mükafatlandırma mərasimində iştirak edib, Türkiyə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil olunan beynəlxalq standart eyniləşdirmə nömrələri – İSBN (İnternational Standard Book Number), İSMN (İnternational Standard Music Number), İSSN (İnternational Standard Serial Number), Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemləri (AKİS), elektron kitabxanalar, TEDA proqramı (Türkiyə Ədəbiyyatının Dünyaya Açılışı), OLP (Open License Program) üzrə təlimlərə qatılıb, Türkiyənin İPA (İnternational Publishers Associaton) və İFRRO ilə (İnternational Federation of Reproduction Rights Organisations) əməkdaşlıq təcrübəsi barədə məlumat əldə edib.

Qeyd edək ki, 2022-ci ilin oktyabrında təşkil olunacaq 8-ci Bakı Beynəlxalq Kitab Sərgisinin ilk fəxri qonaq ölkəsi Türkiyə olacaq. İndiyədək Bakı Beynəlxalq Kitab Sərgisində fəxri qonaq statusunda heç bir ölkə çıxış etməyib.



# Türk dünyasının teatr rəhbərləri Bursada bir araya gəliblər

Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un layihəsi üzrə 2022-ci ildə "Türk Dünyasının Mədəniyyət Paytaxtı" elan edilən Bursada tədbirlər proqramı davam edir. 10-24 mart tarixində Bursada IX Balkan Ölkələri Teatr Festivalı keçirilir.

Martın 11-dən 14-dək isə şəhərdə TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatr Rəhbərləri Şurasının 8-ci iclası keçirilib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə gerçəkləşən toplantıda Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkiyə, Özbəkistan, Şimali Kipr Türk Respublikası və Qaqauziya (Moldova) dövlət teatrlarının rəhbərləri iştirak ediblər.

Türkiyə Dövlət Teatrlarının Baş direktoru Mustafa Kurt açılış nitqində "Türk Dünyasının Mədəniyyət Paytaxtı" Bursada şuranın iclasına ev sahibliyi etməkdən məmnunluqlarını ifadə edib. O, qardaş ölkələrin teatrları ilə əməkdaşlığın əhəmiyyətinə toxunaraq bu il Türkiyədə keçiriləcək beynəlxalq festivallar haqqında məlumat verib.

TÜRKSOY-a üzv ölkələrin Dövlət Teatr Rəhbərləri Şurasının koordinatoru, Azərbaycan Mədəniyyət Nazirliyinin TÜRKSOY-dakı təmsilçisi Elçin Qafarlı iştirakçıları TÜRKSOY-un Baş katibi Düsen Kaseinovun adından salamlayaraq şuranın son iclasından ötən müddətdə həyata keçirilən fəaliyyət haqqında danışıb. E.Qafarlı tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Türkiyə Dövlət Teatrlarına və toplantıya ev sahibliyi edən Bursa Dövlət Teatrına təşəkkür edib.

Şuranın üzvləri çıxış edərək öz ölkələrində və teatrlarında görülən işləri, yaşanan problemlər və onların həlli yolları, bu xüsusda mümkün əməkdaşlıq təkliflərini müzakirə ediblər.

İclasda sənətşünaslıq üzrə elmlər doktoru, Beynəlxalq Teatr Tənqidçiləri Assosiasiyasının üzvü, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru İsrafil İsrafilov növbəti müddətə TÜRKSOY-a üzv ölkələrinin Dövlət Teatr Rəhbərləri Şurasının rəhbəri seçilib.

Şuranın 9-cu iclasının qurum tərəfindən elan ediləcək "2023 – Türk Dünyasının Mədəniyyət Paytaxtı"nda keçirilməsi qərara alınıb. Xatırladaq ki, Azərbaycan tərəfi gələn il üçün "Türk Dünyasının Mədəniyyət Paytaxtı" üçün namizəd olaraq Şuşa şəhərini təklif edib.

İclasın sonunda iştirakçılara TÜRKSOY-un plaketləri, sertifikatı və Türkiyə Dövlət Teatrlarının xatirə hədiyyələri təqdim olunub.

**Mehparə Sultanova**

# "İkinci planetin qırmızı rəngi" ekranlarda görünəcək

Mədəniyyət Nazirliyinin ötən il həyata keçirdiyi "Böyük Qayıdış" qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsi Azərbaycan kinosuna yeni imzaların gəlməsinə vəsilə oldu. Müsabiqə milli kinematoqrafiya sahəsində fəaliyyət göstərən yaradıcı şəxslərə dəstək göstərmək və Vətən müharibəsində qazanılmış böyük Zəfərə kino vasitəsilə töhfə vermək məqsədilə təşkil olunmuşdu.

Gənc rejissor Azər Quliyevin "İkinci planetin qırmızı rəngi" ("Mozalan" studiyası) adlı qısametrajlı bədii film layihəsi də müsabiqənin qaliblərindəndir. Rejissor qəzetimizə bildirdi ki, ötən ilin payızında işə başladıqları ekran əsərinin çəkilişləri artıq yekunlaşıb. Film bir ay müddətinə tam hazır olacaq. Nümayişi və ictimaiyyətə təqdim olunması məsələləri isə filmin lentə alındığı "Mozalan" studiyası tərəfindən həyata keçiriləcək.

"Mozalan" studiyasının rəhbəri, rejissor Əli Səttar Quliyev bildirdi ki, hazırda film üzərində tamamlama işləri aparılır: "Çalışacağıq filmi beynəlxalq festivallarda nümayiş etdirək. Daha sonra isə artıq geniş auditoriyaya təqdim olunacaq. Eyni zamanda "Böyük Qayıdış" layihəsi çərçivəsində çəkilmiş filmlərin ümumi təqdimatı baş tutarsa, o zaman ilk olaraq ölkə daxilində təqdimatımız gerçəkləşəcək. Bu proses Mədəniyyət Nazirliyinin qərarı ilə bilinəcək və ictimaiyyətə əlavə məlumat veriləcək". Filmin quruluşçu rejissoru və ssenari müəllifi Azər Quliyev, prodüseri Əli Səttar Quliyev, təsvir rejissoru Alisa Tareliçeva, ikinci rejissoru İlkin Həmidli, rəssam-rekvizitoru Samirə Şamxalova, səs rejissoru Teymur Kərimovdur. Rollarda Rafael Şahbəyli (Quliyev), Diana Hacıyeva, Əli Nəsib, Aydan Həsənzadə iştirak edir. Film Musa adlı gəncin iztirablı düşüncələrindən və şəxsi həyatındakı çətinliklər fonunda Vətən müharibəsinə yollanmağından bəhs edir.

**Lalə**

# Milli Dram Teatrında çoxdan gözlənilən premyera

Martın 13-də Azərbaycan Akademik Milli Dram Teatrında "Filumena Marturano" tamaşasının premyerası keçirilib. Qeyd edək ki, italyan dramaturqu Eduardo de Filipponun eyniadlı əsəri əsasında tamaşanın hazırlıqları hələ pandemiyadan öncə başlamışdı.




Səhnə əsərinin bədii rəhbəri Xalq artisti Azər Paşa Nemətov, quruluşçu rejissoru Əməkdar artist Nicat Kazımov, rejissoru Mehman Fətullayev, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Elxanoğlu, işıq üzrə rəssamı Rafael Həsənov, musiqi tərtibatçısı Kamil İsmayılov, rəqslərin quruluşçusu Lalə Hacıyeva, rejissor assistentləri Dilbər İsmayılova və Könül Kərimovadır. Əsəri Azərbaycan dilinə Ülviyyə Heydərova tərcümə edib.

Baş rolları Xalq artistləri Bəsti Cəfərova (Filumena Marturano) və Ramiz Novruz (Domeniko Soriano) oynayırlar. Tamaşada həmçinin Əməkdar artist Sevinc Əliyeva, aktyorlar Ramin Şıxəliyev, Ləman İmanova, aktyorlar Şəhla Əliqızı, İlahə Həsənova, Fəridə Şahbazova, Vüsal Mustafayev, Elnur Qədirov, Corc Qafarov, Cavidan Novruz və Elsevər Rəhimov, Firuzə Balayeva, Xədicə Novruzlu rol alıblar.

Eduardo de Filipponun 1946-cı ildə qələmə aldığı əsər həmin il Neapolda tamaşaya qoyulub. Əsər Filumena Marturano adlı qadının Domeniko Soriano adlı varlı kişi ilə mübarizəsindən bəhs edir. Əsərdəki əsas motiv insanlar arasında sosial ziddiyyətlər, qadın hüquqları və cəmiyyətdəki təbəqələşmənin törətdiyi fəsadlardır.

# Xalq yazıçısı, kinodramaturq Rüstəm İbrahimbəyov vəfat edib

Azərbaycan mədəniyyətinə ağır itki üz verib. Xalq yazıçısı, görkəmli kinodramaturq, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Dövlət mükafatları laureatı Rüstəm Məmmədibrahim oğlu İbrahimbəyov 2022-ci il martın 11-də, ömrünün 84-cü ilində dünyasını dəyişib.



Rüstəm İbrahimbəyovun vəfatı ilə bağlı Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, dövlət və hökumət rəsmiləri, tanınmış mədəniyyət, ədəbiyyat xadimləri adından rəsmi nekroloq yayılıb.

Nekroloqda qeyd olunur ki, Rüstəm İbrahimbəyov 1939-cu il fevralın 5-də Bakı şəhərində anadan olub. 1956–1962-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunda təhsil alıb, əmək fəaliyyətinə 1962-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasında başlayıb. Gənc yaşlarından ədəbiyyat və kino sənəti ilə yaxından maraqlanan Rüstəm İbrahimbəyov Moskvada 1967-ci ildə Ali ssenarist, 1974-cü ildə Ali rejissorluq kurslarını bitirib.

Müasir Azərbaycan ədəbiyyatının və kinematoqrafiyasının görkəmli simalarından olan yazıçı çoxcəhətli fəaliyyəti ilə ölkəmizin hüdudlarından kənarda da tanınıb. Onun əsərləri əsasında 40-dan çox bədii və televiziya filmi çəkilib. Rüstəm İbrahimbəyov 1967–1981-ci illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1981–1985-ci illərdə birinci katibi, 1986–1991-ci illərdə SSRİ Kinematoqrafçılar İttifaqı İdarə Heyətinin katibi, 1990-cı ildən ömrünün sonunadək Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri olub, 1989-cu ildə SSRİ Ali Sovetinin deputatı seçilib. 1976-cı ildə "Əməkdar incəsənət xadimi", 1998-ci ildə "Xalq yazıçısı" fəxri adlarına, Azərbaycan ədəbiyyatının və kino sənətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeninə layiq görülüb.

Qeyd edək ki, yazıçıya ən böyük şöhrət gətirən onun ssenariləri əsasında çəkilən filmlər olub. Ssenari müəllifi kimi Azərbaycan SSR Dövlət mükafatına (1980, "Ad günü" filminə görə), SSRİ Dövlət mükafatına (1981, "İstintaq" filmi), Rusiya Federasiyasının Dövlət mükafatlarına (1993, "Urqa. Sevgi ərazisi"; 1996, "Günəşdən usanmışlar"; 1998, "Səhranın bəyaz günəşi"; 2000, "Sibir bərbəri") layiq görülüb. Bundan əlavə, kinorejissor Nikita Mixalkovun Rüstəm İbrahimbəyovun ssenariləri əsasında çəkdiyi "Urqa. Sevgi ərazisi" filmi Venesiya kinofestivalının "Qızıl şir", "Günəşdən usanmışlar" filmi Amerika Kino Akademiyasının "Oskar" ("Ən yaxşı xarici film") və Kann kinofestivalının "Jürinin xüsusi mükafatı"nı qazanıb.

Yazıçının "Bağlı qapı arxasında qadın", "Kaliforniyada dəfn", "Qum üzərində ev", "Şirəbənzər" və s. pyesləri Praqa, Berlin, Sofiya, Budapeşt, Nyu-York şəhərlərində, eləcə də Bakıda və Moskvada səhnələşdirilib. Rüstəm İbrahimbəyov Bakıda "İbrus" teatrını, Moskvada eyniadlı kino şirkətini yaratmışdı.

O, Azərbaycan Kinematoqrafçılar İttifaqına rəhbərlik etməklə bərabər, MDB və Baltikyanı ölkələrin Kinematoqrafçılar İttifaqları Konfederasiyasının sədri idi. Uzun illər yaşadığı Rusiyada da təltiflərə ("Əməkdar incəsənət xadimi" fəxri adı – 1995; "Dostluq" ordeni – 2019) layiq görülmüşdü.

2000-ci ildə Fransanın "İncəsənət və Ədəbiyyat Ordeni"nin ali (komandor) dərəcəsinə layiq görülən Rüstəm İbrahimbəyov daha sonra Fransa parlamentində qondarma "erməni soyqırımı"nın tanınmasına etiraz olaraq bu ordendən imtina etmişdi...

***

Martın 13-də Moskvada Mərkəzi Kinematoqrafçılar Evində Rüstəm İbrahimbəyovla vida mərasimi keçirilib.



Mərasimdə Azərbaycan Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın imzaladıqları nekroloqun mətni və Rusiya Prezidenti Vladimir Putinin Rüstəm İbrahimbəyovun ailəsinə ünvanladığı başsağlığı məktubu oxunub.

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu qeyd edib ki, Rüstəm İbrahimbəyovun adı və parlaq yaradıcılığı insanların qəlbində yaşayacaq: "Rüstəm İbrahimbəyov görkəmli dramaturq, yazıçı idi. Onun kino, teatr, ədəbiyyat sahələrində çox böyük uğurları var. Belə böyük şəxsiyyət haqqında keçmiş zamanda danışmaq çətindir...".

Kinorejissor və ssenarist, Rusiyanın Xalq artisti Andrey Konçalovski bildirib ki, Rüstəm İbrahimbəyov həm Azərbaycan, həm də Rusiya kinematoqrafında bütöv bir dövrün yaradıcısıdır. "O, parlaq simalardan biri idi. Biz və sözsüz ki, Azərbaycan mədəniyyəti Rüstəm İbrahimbəyovu unutmayacağıq...", – deyə o vurğulayıb.

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy qeyd edib ki, Rüstəm İbrahimbəyov vətəni Azərbaycanı çox sevirdi. M.Şvıdkoy deyib: "Heydər Əliyev Azərbaycan Mərkəzi Komitəsinin Birinci katibi vəzifəsində işləyərkən onun həyatında çox mühüm rol oynamışdı. "İstintaq" filmi 1978-ci ildə sovet kinematoqrafiyası sahəsində və siyasi aləmdə kəskin müzakirələrə səbəb olmuşdu. Lakin o zaman məhz Heydər Əliyev Rüstəm İbrahimbəyovun yaradıcılıq cəsarətini dəstəkləmişdi...".

Rüstəm İbrahimbəyovun oğlu Fuad İbrahimbəyov atasının xatirəsinə göstərilən dərin ehtirama görə təşəkkürünü bildirib.

Qeyd edək ki, mərhumun nəşi martın 15-də axşam Moskvadan Bakıya gətirilib.

Rüstəm İbrahimbəyov martın 16-da torpağa tapşırılacaq.

# Sumqayıtda "Qarabağa dönüş" sərgisi

Sumqayıt RMİ Sumqayıt şəhər Heydər Əliyev Mərkəzində "Qarabağa dönüş" adlı sərgi açılıb.

Tədbirdə şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Teymur Səmədov, Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev, Milli Məclisin deputatı Emin Hacıyev, Heydər Əliyev Mərkəzinin direktoru Vüsalə Qurbanova və başqaları çıxış edərək tariximizin, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında belə layihələrin əhəmiyyətini vurğulayıblar.

Sərgidə Sumqayıt Dövlət Peşə Təhsil Mərkəzi tələbələrinin əl işləri maraqla qarşılanıb. Dərzi ixtisası üzrə təhsil alanların hazırladığı Qarabağ milli geyimləri xüsusilə diqqəti cəlb edib. Tələbələrin hazırladıqları Qarabağ mətbəxi nümunələri, şirniyyatlar da qonaqların marağına səbəb olub.

əvvəli səh. 1-də

# Bölgələrin mədəni inkişafı yerlərdə təşəbbüskarlıqdan da asılıdır

## Nazir Anar Kərimov cənub zonasının mədəniyyət işçiləri ilə görüşüb, müəssisələrə baxış keçirib

Martın 11-də səfər proqramı Astara şəhərində davam edib.

Anar Kərimov şəhərdəki Heydər Əliyev Mərkəzində Astara, Lerik və Lənkəran rayonlarının sakinlərini qəbul edib.

Görüşdən öncə mədəniyyət naziri Anar Kərimov və Astara Rayon İcra Hakimiyyətinin başçısı Qəzənfər Ağayev ümummilli lider Heydər Əliyevin Astara şəhərindəki abidəsini ziyarət ediblər. Abidə önünə gül dəstələri qoyulub, ulu öndərin xatirəsi ehtiramla yad olunub.

Qəbulda iştirak edən vətəndaşların müraciətləri yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyətinin təkmilləşdirilməsi, mədəniyyət könüllüləri hərəkatının yaradılması, işlə təmin olunma, kitabxanaların müasirləşdirilməsi, müəssisələrin maddi-texniki təminatı, təmiri, qeyri-hökumət təşkilatlarının mədəniyyət sahəsində fəaliyyətinin təşviq edilməsi və digər məsələlərə bağlı olub.

Mədəniyyət naziri vətəndaşların müraciətlərini, ayrı-ayrı məsələlərə dair xahiş və təklifləri diqqətlə dinləyərək, hər bir müraciətin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı qəbulda iştirak edən nazirliyin məsul nümayəndələrinə tapşırıqlar verib.

Görüşdə qeyd olunan rayonlardan ümumilikdə 30-a yaxın vətəndaşın müraciətinə baxılıb. Araşdırılmasına ehtiyac olan bəzi müraciətlər nəzarətə götürülüb.

***





Mədəniyyət naziri vətəndaşların qəbulundan sonra rayondakı bir sıra mədəniyyət müəssisələrinə baxış keçirib.

Anar Kərimov əvvəlcə rayon Mərkəzi Kitabxanası ilə tanış olub. Nazirə kitabxananın fəaliyyəti, kitab fondu barədə ətraflı məlumat verilib.

Sonra Astara şəhər Oqtay Kazımi adına Uşaq musiqi məktəbinə baxış keçirilib. Qeyd olunub ki, 1966-cı ildən fəaliyyət göstərən məktəbdə 54 nəfər müəllim çalışır, müxtəlif ixtisaslar üzrə 228 şagird təhsil alır.

Nazir Astara Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyəti ilə də yaxından maraqlanıb. Məlumat verilib ki, 1980-ci ildə yaradılan muzeyin fondunda ümumilikdə 7980 eksponat var, onlardan 2129-u daimi ekspozisiyada nümayiş olunur.

Anar Kərimov Astara məscidini də ziyarət edib. Bildirilib ki, XIX əsrə aid tikili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli 132 nömrəli Qərarı ilə yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatına alınıb. Məscid binası bişmiş kərpicdən inşa olunub.



Səfər çərçivəsində Anar Kərimov Astara şəhərindəki kilsə binasına da baş çəkib. Məlumat verilib ki, 1880-ci ildə inşa edilən kilsə binası yerli əhəmiyyətli memarlıq abidəsi kimi dövlət qeydiyyatındadır.

Anar Kərimov daha sonra Astara rayon Mədəniyyət Mərkəzi ilə tanış olub. Məlumat verilib ki, 1960-cı ildə yaradılan rayon Mədəniyyət evi 2015-ci ildən Mədəniyyət Mərkəzi kimi fəaliyyətini davam etdirir. Mərkəzin nəzdində "Sevinc" mahnı və rəqs ansamblı, "Gənclik" instrumental ansamblı fəaliyyət göstərir.

Nazir Astara Dövlət Rəsm Qalereyasına da baxış keçirib. Bildirilib ki, 1979-cu ildə təşkil edilən qalereyada təsviri sənətin müxtəlif növlərində əsərlər toplanıb. Rəsm dərnəyində uşaqlar sənətin sirlərini öyrənirlər.

***

Anar Kərimov Astara rayon Mədəniyyət Mərkəzində yerli mədəniyyət işçiləri ilə görüş keçirib.

Görüşdə diqqətə çatdırılıb ki, nazirlik sistemində idarəçiliyin təkmilləşdirilməsi kontekstində mədəniyyət müəssisələrinin fəaliyyətinin günün tələbləri səviyyəsində qurulması prioritet məsələdir. Regionlara səfərlərin əsas məqsədi də yerlərdəki müəssisələrin fəaliyyətini nəzərdən keçirmək, mövcud imkanları və problemləri müəyyən etməkdir. Bu xüsusda qarşıda duran vəzifələrdən bəhs edən Anar Kərimov vurğulayıb ki, bölgələrin mədəni inkişafı yerlərdə mədəniyyət işçilərinin peşəkarlıq səviyyəsindən, təşəbbüskarlıqdan da asılıdır.

Görüşdə rayonun mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib. Problemlərin aradan qaldırılması, müəssisələrin daha səmərəli fəaliyyətinin təşkili ilə bağlı tapşırıq və tövsiyələr verilib.

# "Şuşa İli" çərçivəsində tədbirlər

Masallı Regional Mədəniyyət İdarəsi (RMİ) Yardımlı rayon Heydər Əliyev Mərkəzi, Gənclərin İnkişaf və Karyera Mərkəzi Yardımlı nümayəndəliyinin birgə təşkilatçılığı ilə "Əziz torpaq – Şuşa" adlı tədbir keçirilib. Tədbirdə "Şuşa" sənədli filmi nümayiş etdirilib, iştirakçılar "Şuşa – 270" başlıqlı sərgi ilə tanış olublar.

Ağcabədi RMİ Ağdam rayon Xan Şuşinski adına Uşaq muğam musiqi məktəbinin müəllim və şagirdlərindən ibarət bir qrup Bülbülün Bakıdakı memorial muzeyində konsert proqramı ilə çıxış edib.



Şəki RMİ-nin əhatə etdiyi Qax rayon S.Vurğun adına Mədəniyyət Mərkəzində rayon Uşaq incəsənət məktəbinin iştirakı ilə "Şuşa Azərbaycanın döyünən ürəyidir" adlı tədbir keçirilib. Məktəbin müəllim və şagirdlərinin iştirakı ilə konsert proqramı təqdim edilib.



Gəncə RMİ-nin əhatə etdiyi Kəlbəcər rayon Uşaq incəsənət məktəbinin kollektivi Gəncə şəhərində müvəqqəti yerləşən Aşıq Şəmşir adına Kəlbəcər rayon Mədəniyyət Sarayında konsert proqramı təqdim edib.

Sumqayıt RMİ Sumqayıt şəhər Səməd Vurğun adına Mərkəzi Kitabxanasında "Şuşanın dağları başı vüqarlı" adlı ədəbi-bədii gecə keçirilib. Şagirdlərin ifasında Qarabağa, Şuşaya həsr olunan şeir və mahnılar dinlənilib. Sumqayıt şəhər N.Nərimanov adına Mədəniyyət evində isə "Tək inci" adlı ədəbi-bədii gecə təşkil olunub.

Şəmkir RMİ Şəmkir şəhər Heydər Əliyev Mərkəzində "Şuşa" musiqi festivalının II turu keçirilib. Bu mərhələdə regional idarənin əhatə etdiyi 8 uşaq musiqi, incəsənət və aşıq məktəbindən doqquz ixtisas üzrə 32 şagird çıxış edib.

# Milli Teatr Günü münasibətilə

10 mart – Milli Teatr Günü bölgələrdəki mədəniyyət müəssisələrində müxtəlif tədbirlərlə qeyd olunub.

Sabirabad RMİ-nin rəisi Fərid Qurbanzadə idarənin əhatə etdiyi rayonların teatr sahəsi üzrə bir qrup yaradıcı şəxsi ilə görüş keçirib. Tədbirdə Sabirabad rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən A.İsgəndərov adına Xalq teatrı və Şirvan şəhər Mədəniyyət Mərkəzindəki həvəskar teatrın üzvləri iştirak edib. Görüşdə fikir mübadiləsi aparılıb, regionda teatr sənətinin inkişaf perspektivləri, problemləri barədə söhbət açılıb.

İsmayıllı RMİ Şamaxı rayon Mərkəzi Kitabxanası Uşaq şöbəsinin əməkdaşları tərəfindən Şamaxı rayon 1 saylı uşaq bağçası və körpələr evində azyaşlı oxucularla tədbir keçirilib. Tədbirdə uşaqların ifasında "Turp" nağılının personajları canlandırılıb.

Şəki RMİ Zaqatala rayon Mədəniyyət Mərkəzində görkəmli aktyor, rejissor Hüseyn Ərəblinskinin (1881-1919) xatirəsinə həsr olunmuş "Teatr düşüncələri" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə mərkəzin bədii rəhbəri Samirə Hümbətova görkəmli səhnə fədaisinin həyat və yaradıcılığından söhbət açıb.

Ağstafa RMİ Ağstafa rayon Mədəniyyət Mərkəzində milli teatrımızın bayramı münasibətilə keçirilən tədbirdə Xalq teatrının hazırladığı "Sonrakı peşmançılıq" tamaşası təqdim edilib.

# "Qələbəli Novruz" – bölgələrdə bayram əhvalı



Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində "Qələbəli Novruz" adlı sərgi açılıb. Sərgidə mərkəzin rəsm, tikiş, xalçaçılıq və s. kursları üzvlərinin əl işləri nümayiş etdirilib.

Gəncə RMİ T.Hacıyev adına 2 nömrəli Uşaq musiqi məktəbində "Novruz çələngi" adlı bayram şənliyi keçirilib.

Bərdə RMİ Bərdə rayon MKS-nin kənd kitabxana filiallarında Novruz şənlikləri təşkil edilib.

Sabirabad RMİ və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Sabirabad və Saatlı rayon komitələrinin birgə təşkilatçılığı ilə Novruz bayramı münasibətilə təqaüddə olan bir qrup mədəniyyət işçisi ziyarət olunub. Şirvan şəhər Mədəniyyət Mərkəzində "Bahar çələngi" adlı konsert proqramı təşkil edilib.





Ağstafa RMİ Ağstafa rayon Mərkəzi Kitabxanası, rayon Tarix-Diyarşünaslıq Muzeyi və Ağstafa şəhər 1 saylı Folklor evinin birgə təşkilatçılığı ilə "Şuşalı Novruzum" başlığı altında tədbir təşkil edilib. Rayon 1 saylı tam orta məktəbin 4-cü sinif şagirdlərinin təqdim etdiyi ədəbi-musiqili proqram maraqla qarşılanıb.

Biləsuvar RMİ Biləsuvar rayon MKS-nin Uşaq şöbəsində və İsmətli kənd kitabxanasında Novruz bayramı münasibətilə tədbirlər keçirilib.

**Hazırladı: N.Məmmədli**

# “Vokal musiqisi axşamları”nın xeyriyyə konserti

Beynəlxalq Muğam Mərkəzinin (BMM) “Vokal musiqisi axşamları” layihəsi çərçivəsində xeyriyyə konserti keçirildi.





Martın 10-da gerçəkləşən konsertdə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solisti, Əməkdar artist, Prezident mükafatçısı və “Humay” milli mükafatı laureatı Afaq Abbasova və beynəlxalq müsabiqələr laureatı, pianoçu Səidə Tağızadə musiqisevərlərin qarşısına çıxmışdı. Sənətçilər Azərbaycan və dünya bəstəkarlarının əsərlərini səsləndirdilər.

Proqramda Səid Rüstəmovun “Gəlmədin”, Tofiq Quliyevin “Arzular”, Pikə Axundovanın “Salam, Şuşa”, eləcə də F.Cileanın “Adriana Lecouvreur” operasından Adriananın ariyası, C.Puççininin “La Rondine” operasından Maqdanın ariyası, S.Raxmaninovun “Vokalist” və digər bəstəkarların əsərləri, həmçinin xalq mahnıları da yer almışdı.

Musiqi axşamı janr və dövr baxımından maraqlı, rəngarəng idi. Konsert boyu həm vokalçı, həm də müşayiətçi mürəkkəb ifaçılıq texnikası tələb edən əsərləri, mahnı, ariya və romansları incə zövqlə tamaşaçılara təqdim edə bildilər. Afaq Abbasovanın səhnə-səs məharəti və Səidə Tağızadənin mükəmməl müşayiəti tamaşaçılarda xüsusi ovqat yaratdı. Bütün musiqi nömrələri alqışlarla qarşılandı.

Qeyd edək ki, xeyriyyə konsertindən əldə olunan vəsait “YAŞAT” Fonduna köçürüləcək.

**Lalə Azəri**

# Dayanıqlı moda: tekstilin gələcəyi

Sumqayıt Regional Mədəniyyət İdarəsinin (RMİ) tabeliyindəki Abşeron rayon Mədəniyyət Mərkəzində “Dayanıqlı moda: tekstilin gələcəyi” adlı sərgi açılıb. Sərgi Abşeron Rayon İcra Hakimiyyəti, Xırdalan Şəhər Bələdiyyəsi və İsveçin Azərbaycandakı Səfirliyinin təşkilatçılığı, Sumqayıt RMİ ilə əməkdaşlıq çərçivəsində gerçəkləşir.

Martın 11-də sərginin açılış mərasimində ilk olaraq tədbir iştirakçıları Sumqayıt RMİ-nin tabeliyində fəaliyyət göstərən Xırdalan şəhər onbirillik Musiqi məktəbi şagirdlərinin ifasında “Qarabağ şikəstəsi” zərbi muğamını dinlədilər. Sonra açılışı bildirən rəmzi lent kəsildi.

Abşeron Rayon İcra Hakimiyyəti başçısının müavini Gülnar Rəhimova çıxış edərək layihənin əhəmiyyətini diqqətə çatdırdı.

Bildirdi ki, rayonun 15 orta məktəbindən şagirdlər sərgini ziyarət üçün dəvət olunacaq.

İsveçin ölkəmizdəki səfiri Kristian Kamill sərginin İsveç İnstitutu tərəfindən tədqiqatçılar və moda mütəxəssisləri ilə birlikdə hazırlandığını bildirdi: “Moda sənayesi dünyada ətraf mühiti ən çox çirkləndirən sahələrdən biridir. Hər il dünyada istehlak etdiyimiz 62 milyon ton geyimin yalnız 20 faizini təkrar emal edirik. Sərgi həm istehsalçıların, həm də istehlakçıların paltarların və onların komponentlərinin təmirini, təkrar hazırlanmasını, istifadəsini və təkrar emalını maksimum dərəcədə artırmaqla moda sənayesinin ətraf mühitə arzuolunmaz təsirlərini minimuma endirə biləcəyi yolları izah edir. Sərgidə eyni zamanda İsveç və Azərbaycanın moda sahəsində ekoloji sənətkarlıq və tekstil istehsalı, habelə ənənəvi və dayanıqlı qadın sənətkarlığı ilə bağlı yeni bədii və kurator düşüncələri təqdim edilir”.

Səfir sərginin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirdi.

Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyev tabe mədəniyyət müəssisələrində belə tədbirlərin təşkil edilməsində maraqlı olduqlarını söylədi. Bildirdi ki, regional idarənin tabeliyindəki 7 incəsənət məktəbində 193 şagird rəssamlıq üzrə təhsil alır. Klub və mədəniyyət müəssisələrində isə 20-yə yaxın dərnək mövcuddur: “Bu dərnəklərdə rəssamlıq sənətinin sirləri gənc nəslə öyrədilir. Bundan əlavə, idarənin əhatə etdiyi mədəniyyət müəssisələrində ötən il 33 əhatəli sərgi, 6 ustad dərsi təşkil edilib. Ümid edirəm ki, bu cür tədbirlər Xırdalan şəhərinin mədəni həyatına öz töhfəsini verəcək”.




Daha sonra çıxış edən sərginin kuratoru Könül Rəfiyeva layihə haqqında danışdı. Dedi ki, Xırdalan sakinlərinin istifadə edilməyən parçalardan hazırladığı quramalar ölkəmizdə təbii və ekoloji cəhətdən təmiz tekstilin gələcəyinə dair yaradıcı baxışları əks etdirir. Kurator həmçinin sərgidə qonaq rəssamlar Lyudmila Kristeseva (İsveç) və Günel Ravilovanın (Azərbaycan) əsərlərinin də nümayiş olunduğunu diqqətə çatdırdı: “Rəssamlar multimedia dialoqu ilə iki fərqli görünüşdə moda, tekstil və ekologiya mövzusunda perspektiv təqdim edərək qadının şəxsiyyət kimi formalaşmasında tekstilin rolunu təyin etməyə çalışıblar”.

Sonda tədbir iştirakçıları sərgi ilə yaxından tanış oldular.

Qeyd edək ki, moda sənayesinin əsas problemlərinin işıqlandırıldığı sərgi daha dayanıqlı gələcək üçün İsveçdə irəli sürülən həll yolları və təşəbbüsləri əks etdirir. “Dayanıqlı moda: tekstilin gələcəyi” sərgisi aprelin 11-dək açıq olacaq.

**Nurəddin**

# “Şuşa mədəniyyətinin inciləri”: qala-şəhərin milli geyimləri

Mədəniyyət Nazirliyinin “Şuşa mədəniyyətinin inciləri” layihəsi müxtəlif bölmələr üzrə təqdimatlarla davam edir. “Şuşa İli” münasibətilə həyata keçirilən layihənin “Şuşanın milli geyim üslubu” bölməsinin ilk təqdimatı mədəniyyət paytaxtımızın qadın geyim dəstinə həsr olunub.

Azərbaycan Milli Xalça Muzeyi Şuşa filialının kolleksiyasında qorunub saxlanılan və XX əsrin əvvəlinə aid olan qadın geyim dəsti yaraşıqlı arxalıq və ətəkdən ibarətdir. Bu dəst pambıq astarlı, üzəri qızılı rəngli butalarla bəzədilmiş “zərxara” adlı qiymətli parçadan hazırlanıb.

Qarabağ arxalıqlarını fərqləndirən əsas cəhətlər yaxasının buta və ya oval “oyma” formalı olması, qatlama ətəyi və nilufər (yelpazəli) qolları olub. Arxalığın nilufər qolları dirsəyə qədər düz, dirsəkdən aşağıya doğru genişlənən biçimə malikdir. Geyimin şax durması üçün bel qurşağının yanına yonulmuş yastı çubuq dikinə tikişlə bənd edilib.

Onu da qeyd edək ki, azərbaycanlı qadınların qurşaqdan aşağı üst geyimi topuqlara çatan ətək (tuman) olub. Ətək “taxta” adlandırılan 10-12 hissə parçadan tikilirdi.

# “O olmasın, bu olsun”: növbəti tamaşa Lütviyyə Səfərovaya ithaf olunub

Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” tamaşası növbəti dəfə nümayiş olunub.



Səhnə əsərinin budəfəki təqdimatı uzun illər Akademik Musiqili Teatrda çalışmış aktrisa Lütviyyə Səfərovanın 80 illik yubileyinə həsr edilib.

Quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimova olan tamaşada rolları Əməkdar artistlər Şövqi Hüseynov, Əzizağa Əzizov, Nahidə Orucova, Ələkbər Əliyev, Nadir Xasiyev, aktyorlar Elxan İsmayılov, Əliməmməd Novruzov, Hüseyn Əlili, Gültac Əlili, Şaban Cəfərov, Fərid Rzayev, Elməddin Dadaşov, Təranə Əliyeva və başqaları ifa ediblər.

Xatırladaq ki, Lütviyyə Səfərova müxtəlif illərdə “O olmasın, bu olsun” musiqili komediyasında Gülnaz və Sənəm obrazlarını canlandırıb.

Lütviyyə Şamil qızı Səfərova 1942-ci il martın 11-də Bakıda anadan olub. Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbinin Vokal şöbəsini bitirib. 1963-cü ildən Musiqili Komediya Teatrında (Akademik Musiqili Teatr) fəaliyyətə başlayıb. “Gözün aydın”da Leyla, “Özümüz bilərik”də Lalə, “Sevindik qız axtarır”da Nazik, “Ev bizim, sirr bizim”də Çiçək, “Arşın mal alan”da Asya, “Bankir adaxlı”da Ceyran, “Nəğməli könül”də Qəmər xanım və digər tamaşalarda rəngarəng obrazlar qalereyası yaradıb.

O, 1989-cu ildən 1996-cı ilədək Bakı Bələdiyyə, “Tənqid-Təbliğ” teatrlarında çalışıb, sonra yenidən əvvəlki iş yerinə qayıdıb, yeni rolları ilə tamaşaçıların rəğbətini qazanıb. Bir sıra televiziya tamaşalarında və filmlərdə rol alan aktrisa 2010-cu il martın 1-də vəfat edib.



# Teatral cəhdlərə ikinci baxış

## Teatr Xadimləri İttifaqının “Baxış - 2” festivalında yadda qalanlar

Başlığı təsadüfən seçmədim. Çünki bütün cəhdlər uğurlu olacaq və o, mütləq nə isə bir axının davamıdır düşüncəsinə varmaq da özünü aldatmaq olardı. “Yüz eşitməkdənsə, bir görmək yaxşıdır” düşüncəsində olmaq ən münasib yoldur...

Xəbər verdiyimiz kimi, Azərbaycan Teatr Xadimləri İttifaqı (ATXİ) martın 6-dan 9-dək “Baxış - 2” adlı festival keçirdi. ATXİ-nin yaranmasının 125-ci ildönümünə həsr olunan bu festivalı ittifaqın nəzdində fəaliyyət göstərən rejissor laboratoriyası təşkil etmişdi. Bir növ ilk festivaldan (“Baxış -1” festivalı 2019-cu ilin oktyabrında keçirilib) bu yana hansı yeni teatr, yaradıcılıq aktları icra etdikləri dəfiləyə çıxarılmışdı. “Dəfilə” sözümü qəribliyə salmayın. Çünki biz bu festival müddətində teatrda dəbə çevrilən yeni formaları, cərəyan və meyilləri də görməyə çalışdıq...

Əslində, bu məsələ ilə bağlı ürəyim çox dolu, dilim də çox sivridir. Sadəcə, əksəriyyəti yeni nəsil olan rejissor, daha doğrusu, rejissorluğa iddialı yaradıcı insanların kefinə soğan doğramaq istəmirəm. Ələlxüsus da bəzi səsi Mərdanov səhnəsinin 40-45 nəfərlik auditoriyasında divarlara “yaxılıb” öz qulaqlarına belə dəyməyən, nidası, ifadə forması, dramaturji materiala, teatr aktına münasibəti az qala yerlərdə sürünən aktyorların könlünü qırmaqdan çox uzağam. Bu, öz yerində. Amma həm də bütün müqəddəslərə and olsun ki, bir-iki cəhdi çıxmaq şərti ilə nə göstərilənlər teatrın adı həndəvərində dolaşdılar, nə də görənlər onlardan bir şey anladılar. Əzizlər, qətiyyən anladılar sözümdən “anlamırlar, özləri bilərlər” kimi ritorik cavab çıxarmayın. Çünki göstərdiyiniz əksər zadları heç özünüz də anlamış deyildiniz...

Nə isə keçək xoş niyyət, yaradıcılıq üçün meydan olan festivala.

İttifaqın Mustafa Mərdanov səhnəsinin yarıqaranlıq zalını gözlərindəki ümid qarışıq sevgi ilə işıqlandırmağa çalışan tamaşaçılar ilk nümunəyə maraqla diqqət kəsildilər. İnsafən, açılış üçün seçim uğurlu idi. Qarşıdakı günlərə “hələ bu harasıdır” vədini verirdi. Mövzu teatr, daha doğrusu, yaşa dolmuş aktyor haqqında kədərli monoloq da sayıla bilərdi. Fin dramaturqu Bengt Alforsun “İllüziyaçılar” əsəri əsasında hazırlanan eyniadlı tamaşa, cəsarətlə deyə bilərəm ki, festivalda izlədiyim ən yaxşı nümunə idi. Gənc aktrisa Zümrüd Quliyevanın tərcümə etdiyi pyesə quruluşu Müşfiq Əliyev vermişdi. Fərqli ruh hallarının sistemli şəkildə əvəzləndiyi tamaşanın musiqi tərtibatçısı Zaur Rəşidov idi.

Usta aktyor Kərəm Hadızadənin insan və ifaçı kimi təbiətinə xas çalarları qəhrəmanının obrazına qatması və əslində, özünü ifası möhtəşəm idi. O özünü səhnədə tapmadan qocalan aktyorları, onların arzularını, nisgil və kin-küdurətlərini, tamaşaçının görmək istədiyi, daha doğrusu, aktyorun göstərmək istəmədiyi yönləri də ustalıqla nümayiş etdirdi. Əməkdar artist Elnur Hüseynov və aktrisa Zümrüd Quliyeva da teatr haqqında səhnə oyununa nə isə qatmağa çalışdılar. Mənə elə gəldi ki, bu tamaşa təkcə səhnədə yox, elə zalda da “oynanılır”. Əsasən teatr sənətçilərindən ibarət tamaşaçılar səhnədəkilərə qoşulub gah gülür, gah ağlayır, gah da təsdiq üçün aldadıcı qəhqəhələr saçırdılar.

Günün ikinci nümayişi də iddialı idi. F.Dostoyevskinin “Cinayət və cəza” romanı əsasında hazırlanan “RaskolnikOFF” tamaşası təqdim olundu. Quruluş və tərtibat müəllifi Ayla Osmanova olan səhnə işinin musiqi tərtibatçısı Ağa Səlim Feyzullayev idi. Nurlan Süleymanlı və Xəyalə Meydanova dueti özlüyündə ağır, bir az da qlobal və nəhayətsiz mövzuya özünəməxsus təsvir bucağından baxış kimi uğurlu sayıla bilər. Rejissor əsərin qayəsindəki bəzi ünvansız ittiham və bəraətləri öz tərəzisində tarazlamağa çalışmışdı.

Keçək Əziz Nesinə müraciət edib, “Bir qadının dueti”ni səhnəyə daşıyanlara. Tamaşanın rejissoru ömrünü teatra və ittifaqa bağlayan Məhəmməd Verdiyev idi. Duetdəkilər isə Rada Nəsibova və Günel Həmidova.

Bir il öncə heykəltəraş ərini itirən və hər gecə onun gəldiyini zənn edib həyatını zindana çevirən qadının əzabları ilə başlayır tamaşa. Sonra başqa bir qadın peyda olur. O da əzab içində qıvrılır. Çünki hər ikisi artıq çoxdan ölmüş heykəltəraşın yarımçıq qalmış əsəridirlər. Hər ikisi əziyyət çəkir. Səbəbləri başqadır. Amma səbəbkarı, günahkarı artıq hər iki qadının lənətlədiyi ölmüş kişidir. Qadınlarını xoşbəxt edə bilməyən və özünün natamamlığında iki gözəl və eşq dolu qadını boğan eqoist kişi. Düzdür, artıq o yoxdur, ölümü ilə onları da, özünü də xilas edə bilib. Amma nə yazıq ki, itaət, bağlılıq və ünvansız sevgi kabusunu qadınların həyatından çıxara bilməyib.



İki qadının təbii, inandırıcı cəhdini yaxşı saymaq olardı. Əgər rejissor özünə bir az da əziyyət verib dramaturji materiala əl gəzdirsə, onu mətn yükündən azad etsəydi.

Ümumən istər bir, istərsə də çoxpərdəli pyeslərdə, roman və povestlərdən səhnələşdirmələrdə, yaxud da sadəcə, istənilən səhnə aktı üçün ədəbi əsaslarda bu qədər uzunçu və bu qədər yorucu olmaq nəyə xidmət edir?! Əfəndilər, jest, mimika, plastika və sadəcə, hərəkət var ikən, istənilən sözü onların səssiz dili ilə daha asan və təsirli ifadə mümkün olduğu təqdirdə, aktyoru nəfəsi kəsilib, dili topuq vuranadək mətnlə yükləmək hansı cəza metoduna daxildir?! Rada Nəsibova ilə tərəf-müqabilinin səhnə dueti üzərində müəyyən əl gəzdirmək, xüsusən hərəkətdə sinxronluğu nəzarətdə saxlamaqla auditoriya önünə çıxa biləcək nümunə hasil etmək olar...

Bu sözləri Səbinə Məmmədovanın rejissoru və səhnə tərtibatçısı olduğu akta da aid edə bilərəmmi, deyə düşünürəm. Hə, əslində, aktrisa kimi sevdiklərimdən və təsirli oyun gücünü çoxdan qəbul etdiklərimdəndir.

Amma və lakin durub Corc Bayronun məşhur və bir o qədər də teatr estetikası baxımından təhlükəli “Qabil”inə yozum vermək də hər kəsin işi deyil axı. Aktrisanın dediyim pyes əsasında hazırladığı “Xülya”nı, sadəcə, cəsarətinə görə alqışlamaq olar. Hərçənd bu əbədi mövzuya günümüzün soyuq və isti müharibələrini, uzaq və yaxın mübadilələrini qoşmağından uğurlu ifaçı (Beyrək Rüstəmzadə, Elçin Əmirov) və final təyininə qədər hamısını yığcamlaşdırmağını, ən əsası da qır qazanından çıxmaq üçün quyuya ip sallamağını bəyəndim.

Gələk 8 Mart bayramımızı birlikdə keçirdiyimiz “İnsan səsi”nə. Jan Koktonun qadın əzablarından bəhs edən və ruhən kimsəni laqeyd qalmağa qoymayan bu əsərin rejissor və səhnə tərtibatçısı yükünün altına Elgün Yəhyayev girmişdi.

Könül Əbilin ifasında ədibin kişi kimi seyrçi qalmadığı qadın ağrılarını, yox olmaq ilə yaşamaq arasındakı qırmızı xətdən keçidini nə tamaşaçı, nə də qadın olaraq hiss etmək imkanımız olmadı. Daha doğrusu, ədəbi materialın tərcüməçisi ilə (kimliyini bilməsək yaxşıdır) onu səhnəyə çıxaran “köməkləşib” bizi bu imkandan məhrum elədilər. Ona görə ki, mətn ifrat yüklü və bədii dil baxımdan bərbad idi. Hətta bəzi hüznlü replikalar, dramatik, daha doğrusu, tragik situasiyaların sözlü təsviri əksinə, gülüş yaradırdı. Beləcə, aktrisanın təkbaşına qadın və həssas ifaçı olaraq çırpınışları səhnəyə düzülmüş oturacaqlar (rekvizit) kimi bir-bir aşırılırdı...

Bu və ümumən festival boyu baxdığım əksər tamaşalarda bir məqam xüsusilə diqqətimi cəlb etdi: yeni nəsil aktyorlar oturuşmuş formadan bacardıqca uzağa qaçırlar. Bu, pisdirmi? Yox, qətiyyən. Çünki teatr, səhnə canlı orqanizmdir və o, daim yenilənməni, özünü təkrardan qaçmaqla qınından çıxmağı sevir. Amma bu o demək deyil ki, hər yenilik sənətə nələrsə qazandıracaq. Əgər sən tamaşaçıya “bu və bu günədək gördüklərinin hamısı cəfəngiyatdır və mən sənə daha yaxşısını təklif edirəm” deyirsənsə, birinci o təklifinin tələbini təyin etməlisən. Ən əvvəl də təqdim etdiyinin ilk istifadəçisi, iqtisadi terminlə desək, istehlakçısı özün olmalısan. Yoxsa, sənin məni yenilik və müasirlik adı ilə aldatmağın ən çox sənin zərərinədir...

Martın 9-da teatrsevərlər yenə gəncliyin azadə cəhdlərindən “Lənətlənmiş svastika” ilə tanış oldular. Müəllif və rejissor kimi Zəhra Quliyeva Adolf Hitler ilə gah Xeyir, gah da Şər olan kəsi üz-üzə qoymuşdu. Tamaşa şamanizm çalarlı musiqi və xronologiyanı göstərmək üçün videomateriallarla gücləndirilmişdi.

Beyrək Rüstəmzadə və Vasif Vaqif ittifaqın böyük səhnəsindən insanlığa aramsız çağırışlar edir və mütləq şəkildə bütün yaradılmışı insan kimi yaşamağa səsləyirdilər. Müqəddəs kitablardan kəlamlarla başlayan və bitən tamaşanın məramı bəşəriyyəti xilasa ayin də hesab oluna bilər.

İmran Qurbanovun rejissor işi olan “Qış gecəsi” (Akyuz Salih) proqramdakı son tamaşa idi. Nümunənin səhnə tərtibatçısı Reyhan Aslanova, ifaçıları isə Əməkdar artist Anar Heybətov və İlahə Həsənova idi.

Festival martın 10-da baş tutan yekun və mükafatlandırma mərasimi ilə başa çatdı. Rəsmi çıxışlar, təqdimat və təbriklərin ardınca səhnə yenə gənclərin oldu. Belə ki, bayram təbriki olaraq A.Çexovun “Təklif” vodevili əsasında “Bizim təklif” tamaşası oynanıldı.

Beləcə, bir yaradıcı təşəbbüs, teatrın ən azı proses olaraq davamına hesablanmış marafon da sona yetdi. Əlahəzrət teatr və tamaşaçı növbəti yaradıcı təşəbbüsədək pərdələrini “endirdi”...

**Həmidə Nizamiqızı**

# "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən növbəti film

Mədəniyyət Nazirliyinin sifarişi ilə "Salnaməfilm" studiyasında Azərbaycanın Milli Qəhrəmanlarına həsr olunan silsilə filmlərin çəkilişləri davam etdirilir. Bu silsilədən növbəti film Birinci Qarabağ müharibəsi şəhidi, Milli Qəhrəman Mübariz Əhmədov (1963-1992) haqqındadır.



1992-ci ilin 24 sentyabrında Ağdamın Abdal Gülablı kəndində özünümüdafiə taborunda düşmən qüvvələrinə qarşı döyüşdə şəhid olan Mübariz Əhmədov Sabirabad rayonunun Qaratəpə kəndində doğulub.

Qəhrəmanın həyat və döyüş yolundan bəhs edən filmin ssenari müəllifi və rejissoru Murad Muradov, təsvir rejissoru Soltan Abdullayev, prodüseri Əlisəttar Quliyevdir. Filmin çəkilişləri Bakıda və qəhrəmanın doğulduğu Sabirabad rayonunda aparılıb.

Qeyd edək ki, indiyədək Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən 100-dən çox sənədli film çəkilib.

**Lalə**

# Həm də doğulduğu yurd uğrunda döyüşürdü...

Yaş meyarına görə Vətənin haqq mübarizəsinə çağırılmamışdı. Çünki ana yurdu düşmən tapdağından qurtarmaq üçün minlərlə vətənsevər gənc müsəlləh idi. Ancaq o da bu müqəddəs amal üçün könüllü olaraq cəbhəyə yollanmışdı. Axı onun da doğma ocağı işğal altında idi. Vətən müharibəsində canlarından keçərək qəhrəmanlıq dastanı yazan igidlərimizdən daha biri şəhid əsgər Elmir Süleyman oğlu Əliyevdir.



Elmir 1980-ci il noyabrın 22-də Ağdam rayonunun İsmayılbəyli kəndində anadan olub. İlk təhsilini rayonun Pirzatlı kənd tam orta məktəbində alır. 12 yaşı olanda erməni işğalı üzündən dədə-baba yurdundan didərgin düşürlər. O, təhsilini Bərdə rayon Şorəlli kənd tam orta məktəbində davam etdirir. Orta məktəbi bitirdikdən sonra Tovuz rayonundakı N saylı hərbi hissədə xidmət keçir.

2020-ci il sentyabrın 27-də başlanan Vətən müharibəsində o da könüllü olaraq ön cəbhəyə yollanır. Vətən torpağının azad olunması uğrunda döyüşlərdə igidlik göstərir. Noyabrın 3-də Ağdam rayonu istiqamətində gedən ağır döyüşlərin birində qəhrəmancasına şəhid olur.

Həyat yoldaşı Zümrüd Əliyeva deyir ki, Elmir çox gözəl ailə başçısı idi: "O, çox zəhmətkeş insan idi. Həmişə çalışırdı ki, halal zəhmətlə qazanıb ailəsini saxlasın. Müharibə başlayanda nə qədər deyilsə də ki, sənin yaşın ötüb, kimsəni eşitmədi, könüllü olaraq cəbhəyə yollandı. Döyüşlər zamanı Elmir öz şəxsi avtomobili ilə hərbçi yoldaşlarını cəbhəyə aparıb gətirirdi. Həmin vaxtlarda onun avtomobili düşmənin atdığı top atəşinə məruz qalsa da qorxmur, yenə irəliləyir. Çünki onun qəlbində Vətən sevgisi, torpaq həsrəti vardı".

Zümrüd xanım bildirir ki, müharibə zamanı Elmirlə, demək olar ki, hər gün əlaqə saxlayıb: "Noyabrın 2-də son danışığımız oldu. Biz ona vəziyyət necədir deyə soruşanda, deyirdi ki, hər şey yaxşıdır, yavaş-yavaş irəliyə doğru gedirik. Sabahısı gün Elmir şəhidlik zirvəsinə ucaldı. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Vətən sağ olsun...".

2005-ci ildə ailə həyatı quran Elmirin Nurgül və Məhərrəm adlı iki övladı Vətənə əmanət qalıb. Elmir görə bilməsə də, onun və neçə-neçə igid oğullarımızın sayəsində Ağdam rayonu düşməndən azad edildi. Onun da övladları çox yaxın gələcəkdə ata yurdları olan Ağdam torpağında yaşayacaqlar.

Elmir Əliyev noyabrın 3-də Ağdam rayon Quzanlı qəsəbəsindəki Şəhidlər xiyabanında torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda" və "Ağdamın azad olunmasına görə" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Səməd Vurğunun Ev-Muzeyində kitab təqdimatı

Fransa ədəbiyyatı üzrə mütəxəssis və tərcüməçi Aliyə Məstəliyeva-Səmədovanın fransız dilində "Xatirələr, şeirlər, tərcümələr" adlı kitabı "Qanun" nəşriyyatında çapdan çıxıb. Martın 12-də Səməd Vurğunun Ev-Muzeyində kitabın təqdimatı keçirildi.



Təqdimatda Fransanın Azərbaycandakı Səfirliyinin nümayəndələri, fransız dili üzrə mütəxəssislər, ali məktəblərin müəllim və tələbələri iştirak ediblər.

Tədbiri muzeyin direktoru Nüşabə Babayeva-Vəkilova açıb.

Azərbaycan Fransız Dili Müəllimləri Assosiasiyasının prezidenti, Azərbaycan Dillər Universitetinin (ADU) dosenti Gülbəniz Camalova, ADU-nun dosenti Ruhəngiz Abadova, tərcüməçi Zemfira Quliyeva, Azərbaycan Tibb Universitetinin dosenti Zərifə Həbibova, Bakı Mühəndislik Universitetinin tələbəsi Moise Kulosa Mujinga, Fransanın Azərbaycandakı Səfirliyinin nümayəndələri çıxış ediblər. Kitab haqqında öz fikirlərini bildirən çıxışçılar Azərbaycan-Fransa mədəni əlaqələrinin inkişafında Aliyə Məstəliyeva-Səmədovanın rolunu qeyd ediblər.

Azərbaycan-Fransız Universitetinin tələbəsi Zaur Budaqov Aliyə xanımın Vaqif Səmədoğlunun fransız dilinə tərcümə etdiyi şeiri söyləyib. Fransadan fransız dili üzrə mütəxəssis Anne Maria Polo tədbirə videobağlantı ilə qoşulub.

Sonda müəllif təqdimatın təşkilinə görə minnətdarlığını bildirib, bu tədbirin Səməd Vurğunun ömür-gün yoldaşı Xavər xanım Vəkilovanın xatirəsinə ithaf olduğunu deyib.

Tədbir iştirakçılarına "Xatirələr, şeirlər, tərcümələr" kitabı hədiyyə edilib.

# "Ürəklərdə yaşayan sənətkar"

## Ordubadinin 150 illiyinə həsr olunan tədbir

Bu il XX əsr Azərbaycan nəsrində özünəməxsus yeri olan, milli tarixi roman janrının banisi sayılan şair, yazıçı-dramaturq, tərcüməçi, ssenarist, publisist, Əməkdar incəsənət xadimi Məmməd Səid Ordubadinin (1872-1950) 150 illik yubileyi qeyd edilir.



Martın 11-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda Məmməd Səid Ordubadinin yubileyinə həsr edilən "Ürəklərdə yaşayan sənətkar" adlı tədbir keçirildi. Tədbir Bakı Şəhər Mədəniyyət Baş İdarəsi, AYB və M.S.Ordubadinin Ev-Muzeyinin birgə təşkilatçılığı ilə gerçəkləşdi.

Ev-muzeyin direktoru Lalə Abaszadə tədbiri açaraq Ordubadinin 150 illik yubileyi münasibətilə ölkəmizdə silsilə tədbirlərin keçirildiyini qeyd etdi. Yazıçının ədəbi irsindən söz açan direktor diqqətə çatdırdı ki, M.S.Ordubadi çox erkən çağlardan yaradıcılığa maraq göstərib. O, yaradıcılığı dövründə Azərbaycan və Şərq tarixini dərindən araşdırıb, bədii şəkildə oxuculara təqdim edib.

Muzeyin elmi işçisi İradə Vəliyeva çıxış edərək yazıçının həyat və yaradıcılığından danışdı. Bildirdi ki, Ordubadinin müəllimləri Mirzə Baxış Nadim və Məhəmməd Tağı Sidqi onda şeirə, yaradıcılığa olan həvəsi daha da artırıb. Bu barədə o öz xatirələrində yazır: "Mən şeir deməyə və yazıçı olmağa heç də həvəslənmirdim. Atamın yazdığı şeirlərin palçıq içərisinə atılması heç də yadımdan çıxmırdı. Bir çox zamanlar anam da buna mane olurdu. Çünki atamın şeir sənətindən nə kimi fəlakətlər çəkdiyi onun gözünün qabağında idi...".

Xalq yazıçısı Çingiz Abdullayev qeyd etdi ki, Ordubadi Azərbaycan ədəbiyyatına tarixi romanın ustadı kimi daxil olub. O, çoxşaxəli yaradıcılığı ilə ədəbiyyat tariximizdə dərin iz qoyub. Müəllif vətənpərvərlik ideyalarını, milli düşüncələrini nəsr əsərlərində daha qabarıq verə bilib.

Filologiya elmləri doktoru, tənqidçi Vaqif Yusifli çıxışında diqqətə çatdırdı ki, Ordubadinin "Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər", "Qılınc və qələm" və s. əsərləri uzun illər Azərbaycan oxucusunun dönə-dönə mütaliə etdiyi ədəbi nümunələrdir. Həmin əsərlər haqqında onun sağlığında, vəfatından sonra məqalə və elmi tədqiqat əsərləri yazılıb. Ədibin əsərlərinin əksəriyyəti bu gün də aktuallığını qoruyub saxlayır. Bütün bunlar onun bir yazıçı kimi böyük dünyagörüşündən və bənzərsiz istedadından xəbər verir.

Tədbirdə daha sonra filologiya elmləri doktorları Himalay Qasımov, Təyyar Cavadov, dosent Qüdrət Umudov, şair-publisist Zərəngiz Dəmirçi, şair Musa Aslanxanlı və başqaları çıxış edərək ədibin zəngin və çoxşaxəli yaradıcılığından söhbət açdılar. Bildirildi ki, Ordubadi 1905-1920-ci illərdə İranda və Azərbaycanda baş verən bir çox tarixi hadisələrin canlı şahidi və iştirakçısı olub. Bütün bunlar ədibə bu hadisələri illər keçdikdən sonra bədii əsərlərində əks etdirmək imkanı verib. Onun tarixə olan güclü marağı "Gizli Bakı", "Dumanlı Təbriz", "Döyüşən şəhər" və digər romanlarında əksini tapıb.

Sonda Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müəllimi, yazıçının bacısı nəvəsi Həqiqət xanım çıxış edərək tədbirin təşkilində əməyi olan hər kəsə və iştirakçılara ailələri adından təşəkkürünü bildirdi.

**Savalan**

# Əməkdar artist Adil Zeynalovun xatirəsi yad edilib

Martın 12-də Əməkdar artist, uzun illər Lənkəran Dövlət Dram Teatrında aktyor, rejissor kimi fəaliyyət göstərmiş Adil Zeynalovun vəfatının ikinci ildönümü tamam oldu. Bu münasibətlə teatrda xatirə gecəsi keçirilib.



Tədbirdən öncə sənətkarın yaşadığı evin qarşısında xatirə lövhəsinin açılışı olub.

Mərasimdə çıxış edən Xalq artisti Qabil Quliyev, Lənkəran Dövlət Dram Teatrının direktoru Tofiq Heydərov, Dövlət Yuğ Teatrının direktoru İslam Həsənov, Naxçıvan Dövlət Musiqili Dram Teatrının direktoru, Xalq artisti Rza Xudiyev, Əməkdar artist Sücəddin Mirzəyev, yazıçı-publisist Hafiz Mirzə, aktyorlar Natiq Fərzəliyev və Əjdər Zeynalov çıxış edərək mərhum sənətkar haqqında ürək sözlərini bölüşüblər.

Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini Vüqar Məmmədov çıxışında Adil Zeynalovun xatirəsinin əziz tutulduğunu, onun öz sənəti ilə lənkəranlı teatrsevərlərin qəlbində dərin iz qoyduğunu qeyd edib.

A.Zeynalovun yaxın qohumu Naib Hüseynov mərhumun xatirəsinə göstərilən diqqətə görə mərasim iştirakçılarına ailəsi adından minnətdarlığını çatdırıb.

Sonra anım tədbiri Lənkəran Dövlət Dram Teatrında davam etdirilib. Gecənin aparıcısı – aktrisa Aynur Əhmədova sənətkarın həyat və yaradıcılıq yolundan söz açıb. Bildirib ki, Adil Ağakərim oğlu Zeynalov 20 fevral 1960-cı ildə Lənkəran şəhərində anadan olub. 1983-cü ildə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun Musiqili komediya aktyorluğu fakültəsini bitirib. 1977-ci ildən Lənkəran Dövlət Dram Teatrında əmək fəaliyyətinə başlayan A.Zeynalov 1983-cü ildə aktyor truppasına qəbul olunaraq bir sıra rolları ifa edib, 2002-ci ildən ömrünün sonuna kimi teatrda quruluşçu rejissor vəzifəsində çalışıb, onlarla tamaşaya uğurlu quruluş verib. Teatr fəaliyyəti ilə yanaşı, bir sıra bədii filmlərdə də çəkilib. Teatr sənətinin inkişafında xidmətlərinə görə Adil Zeynalov 2012-ci ildə respublikanın "Əməkdar artist"i adına layiq görülüb.

Xatirə gecəsində çıxış edənlər sənətkar barədə xatirələrini söyləyib, keçdiyi mənalı həyat yolundan, yaradıcılığından danışıblar.

A.Zeynalovun yaradıcılığını əks etdirən fotosərgi və tamaşalardan, çəkildiyi filmlərdən kadrlar nümayiş olunub.

**Ağaddin Babayev**
**Lənkəran**

"Şuşanın simaları"

# Erməni məkrinə qarşı mübarizə aparan maarif və mətbuat xadimi

Mədəniyyət paytaxtımız Şuşanın yetirdiyi görkəmli şəxsiyyətləri tanıtmaqda davam edirik. Bu dəfə XX yüzilliyin əvvəllərində Azərbaycanda mətbuat və maarifçiliyin inkişafına töhfələr verən ziyalılarımızdan Haşım bəy Vəzirovu yad edəcəyik. Milli məfkurənin tərəqqisi yolunda çalışan maarif xadimi həm də Azərbaycan və rus dillərində 7 mətbuat orqanının naşiri və redaktoru kimi tanınıb.

Haşım bəy Abdulla bəy oğlu Vəzirov 1868-ci ildə Şuşa şəhərində bir ziyalı ailəsində dünyaya göz açıb. Qarabağ mahalında vətənpərvər insan kimi tanınan Abdulla bəy maarif və mədəniyyətə böyük önəm verib, Şuşada məktəb açıb. Haşım bəy də ilk təhsilini atasının məktəbində alır. On iki yaşında atasını itirən Haşım bəy mədrəsədə ərəb və fars dillərini öyrənir. İslam tarixi və mədəniyyəti ilə bağlı atasının qoyub getdiyi kitabları mütaliə edir. Sonra Şuşa şəhər məktəbində təhsilini davam etdirir, rus dilini mükəmməl öyrənir.

İrəvan Müəllimlər Seminariyasına qəbul olunan Haşım bəy təhsil ocağında görkəmli maarifçi Firidun bəy Köçərli ilə tanış olur. Firidun bəy onda yaradıcılığa maraq oyadır. Tiflisdə nəşr olunan "Kəşkül" qəzeti ilə əməkdaşlığa cəlb edir. Sonra digər mətbuat orqanlarına yolu açılır. Dərc etdirdiyi məqalələrdə mollaxana və mədrəsələrdəki tədris proqramlarının zamanla ayaqlaşmadığını bildirir, bu sahədə müasir metodların tətbiqinin vacibliyini vurğulayır.

Haşım bəy Vəzirov seminariyanı bitirdikdən sonra uzun müddət İrəvan quberniyasının Böyük Vedi, Cavanşir qəzasının Alpout, Şəkinin Kiçik Göynük kəndlərində müəllim, Bərdədə və Şuşada məktəb müdiri işləyir. O, Şuşada pedaqoji fəaliyyətlə yanaşı, şəhər bələdiyyəsinə üzv seçilir. Burada bələdiyyə üzvü olan ermənilər şəhərin təmir-tikinti işlərinə ayrılan vəsaitin çox hissəsini öz məhəllələrinin abadlaşdırılması üçün xərclədiyini görür. Fəaliyyətə başladığı ilk gündən bu ayrı-seçkiliyə son qoyulmasını tələb edir. Bakıda rus dilində çap olunan "Kaspi" qəzetində Şuşa bələdiyyəsinin fəaliyyətini kəskin tənqid edən material dərc etdirir. Haşım bəyin şəhərə sonradan köçürülən bədnam ermənilərin bu haqsızlığına qarşı mübarizəsi yerli məmurların xoşuna gəlmir. Yuxarı dairələrə əleyhinə gizli şikayət məktubları yazdırılır. Beləliklə, erməni məkri öz işini görür. Hökumət məmurları bu məktubları əsas tutaraq 1906-cı ildə məhkəmənin qərarı ilə Haşım bəyi Rusiyanın Stavropol şəhərinə sürgün etdirirlər.



Ancaq maarif xadiminin sürgün həyatı uzun sürmür. O, həmin ilin payızında Şuşaya qayıdır. Tanınmış ictimai xadim, yazıçı-publisist Əhməd bəy Ağaoğlu onu "İrşad" qəzetində işləməyə dəvət edir. Əhməd bəy Sankt-Peterburqa gedərkən qəzetin redaktorluğunu ona tapşırır. Qəzetin 15 nömrəsi H.Vəzirovun redaktorluğu ilə çap olunur.

Daha sonra Haşım bəy böyük mesenat Hacı Zeynalabdin Tağıyevin maliyyə dəstəyi ilə 1 aprel 1907-ci ildən "Tazə həyat" qəzetinin nəşrinə başlayır. Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Əliabbas Müznib, Məmməd Səid Ordubadi, Süleyman Sani Axundov, Tağı Şahbazi və başqaları qəzetdə çıxış edirlər. O, qəzetdə çar Rusiyasının azərbaycanlılara qarşı yürütdüyü ədalətsiz siyasəti ifşa edən yazılar yayımlayır. Nəşrin bu mövqeyi çar məmurlarını qəzəbləndirir və 1908-ci ilin sentyabrında Bakı general-qubernatoru "zərərli istiqamətinə görə" qəzetin bağlanması ilə bağlı əmr imzalayır.

Alovlu publisist 1 dekabr 1908-ci ildə "İttifaq" adlı yeni qəzetin nəşrinə icazə alır. Qəzetdə "Keyfim gələndə", "Birisi" imzaları ilə yazılar dərc edir. "İttifaq" da "Tazə həyat"ın yolunu davam etdirdiyinə görə 3 oktyabr 1909-cu ildə fəaliyyəti dayandırılır. Bütün bunlara baxmayaraq, o, mübariz mövqeyini dəyişmir. Çətinliklə də olsa, "Səda" adlı qəzetin nəşrinə nail olur. Qəzet qısa müddət ərzində böyük nüfuz qazanır. O dövr üçün çox yüksək sayda – 5 min tirajla çap olunur.

Bakı Vilayət Jandarm İdarəsi 14 mart 1911-ci ildə qəzetin hökumət əleyhinə təbliğat apardığını iddia edir. H.Vəzirov və yazar Ə.Müznib həbs edilir. Bir aydan sonra onlar həbsdən buraxılsalar da, jandarm nəzarətinə götürülürlər. H.Vəzirov türkçülük, islamçılıq təbliğatını davam etdirir. Həmin il avqustun 14-də "Səda" qəzetinin də nəşri dayandırılır.

Xalqın maariflənməsi yolunda yorulmadan mübarizə aparan görkəmli naşir sentyabrın 27-də "Kavkazist" qəzetinin (rus dilində) nəşrinə başlayır. On bir sayı çıxdıqdan sonra bu qəzet də bağlanır. Haşım bəy ruhdan düşmür və mübarizəsini davam etdirir. 29 oktyabr 1914-1915-ci illərdə "Məzəli" satirik jurnalının nəşrinə icazə alır. Jurnalda C.Cabbarlı, Ə.Qəmküsar, Ə.Müznib, H.İ.Qasımov, H.S.Səyyah, C.Əsgərzadə və başqa tanınmış ədib və mətbuat nümayəndələrinin satirik əsərləri, bədii-publisist yazıları dərc olunur.

H.Vəzirov qələmini tərcüməçilik sahəsində də sınayıb. V.Şekspirin "Otello" faciəsini ruscadan dilimizə çevirib. O, həmçinin bədii yaradıcılıqla da məşğul olub, "Döymə qapımı, döyərlər qapını", "Evlənmək su içmək deyil", "Xan-xan" kimi komediyaları oxucular tərəfindən maraqla qarşılanıb. Müəllifin dram yaradıcılığı F.Köçərlinin diqqətini çəkib. Bununla bağlı "Novoe obozrenie" qəzetində "Yeni tatar komediyaları" adlı məqalə dərc etdirir. Daha sonra onun "Evlənmək su içmək deyil" əsərini geniş təhlil edir.

Azərbaycanda ilk dəfə mətbuat şəbəkəsi yaradan görkəmli maarifçi 4 fevral 1916-cı ildə, 48 yaşında vəfat edib.

Filologiya elmləri doktoru, professor Vilayət Quliyev araşdırmasında qeyd edir ki, Haşım bəyin vaxtsız ölümü ədəbi-mədəni mühitdə böyük hüznlə qarşılanır. Dərin təəssüf hissi keçirən gənc Cəfər Cabbarlı "Ədibi-möhtərəm Haşım bəyin rəsmi qarşısında" adlı şeir qələmə alır. Cabbarlı "Ey xadimi-ədəb! Uyu rahət məzaridə! İtməz adın baqi var ikən ruzigaridə!" misraları ilə Haşım bəyin maarifçiliyə verdiyi töhfələrin heç vaxt unudulmayacağını bildirib.

**S.Fərəcov**

# Mozaik pannoların estetikası



**M**ozaikanın insan həyatına daxil olmasının tarixi kifayət qədər qədim olsa da, Azərbaycanda ondan ilkin istifadəyə XVIII əsrdə rast gəlinir. Onun saraylarla yanaşı müxtəlif funksiyalı tikililərdə bəzək elementi kimi tətbiqi ilk növbədə rəngli daşların (smaltaların) memarlıqla sintezinin estetikasından qaynaqlanırdı. Ölkənin sovetləşməsindən sonra isə mozaikadan istifadə dairəsi kifayət qədər genişləndi. Bu, həm o dövrdə inşaat işinin genişlənməsi, həm də bu sahədə yeni nümunələr ərsəyə gətirə biləcək yaradıcı qüvvələrin mövcudluğu ilə bağlı olmuşdur.

İkinci Dünya savaşından sonra yaradılan ilk uğurlu mozaik pannolar sırasında incəsənətimizdə Nizami obrazının yaradıcısı kimi qalacaq Qəzənfər Xalıqovun Bakının Zuğulba qəsəbəsindəki "Buzovnaneft" mədəniyyət sarayının foyesində ərsəyə gətirdiyi "Xəmsə" (1965) süjetli kompozisiyasını qeyd etmək olar. Q.Xalıqovun "Xəmsə"ni təşkil edən poemaların hərəsindən bir süjet ("Şirinin dağ çapan Fərhadın yanına gəlməsi", "Sultan Səncər və qarı", "Məcnun səhrada heyvanlar arasında", "Bəhram Gur və Fitnə" və "İskəndər və çoban") seçməklə və onların divarboyu düzülüşünün ritmli ahəngdarlığına və mozaik pannonun bütövlüyünə nail olduğunu söyləmək olar.

Altmışıncı illərdə Oqtay Şıxəliyev və Arif Ağamalovun Gəncə şəhər internat məktəbində birgə işlədikləri "Sülh, əmək, azadlıq, bərabərlik, qardaşlıq və səadət" (1961) mövzulu monumental əsəri çox yüksək dəyərləndirirlər. Bunu şərtləndirən səbəblərdən biri gənc müəlliflərin binanın fasadını bəzəyən bu tərtibatı o vaxtlar üçün yeni olan – sqraffito texnikası ilə mozaikanın sintezində icra etmələri idi.

Bu uğurundan sonra Oqtay Şıxəliyevə təklif olunan yeni sifarişi o, 1962-ci ildə həmkarı Mirzağa Qafarovla birlikdə Bakının S.Orconikidze adına (indiki Suraxanı) rayonundakı Mədəniyyət sarayında həyata keçirmişdir. Burada da sqraffito-mozaika texnikasına müraciət edən rəssam, mədəniyyət obyektinin interyerində idman və sülh mövzusunda ("Futbolçu", "Qaçış", "Bədii gimnastika", "Təmiz səma") monumental əsər yaratmağa nail olmuşdur.

1963-cü ildə isə Oqtay Şıxəliyev həmkarı Hacıbala Rəcəbovla birlikdə paytaxtdakı "Uşaq aləmi" adlanan universal mağazanın bədii tərtibatını (1963) vermişdir. Bu dəfə də ortaq bədii həlli, yəni, sqraffito-mozaika texnikasını tikilinin interyerində – davamlı alıcı-tamaşaçı kütləsi ilə zəngin olan salonunda tətbiq edən müəlliflər "Qoy həmişə günəş olsun!" mövzusunun bədii şərhi ilə məkanın xoş aura yaratmasına çalışmışlar.

Həmin il O.Şıxəliyev təklikdə uşaqlarla bağlı olan daha bir mağazanın bədii tərtibatını həyata keçirmişdir. Onun Bakıdakı "Uşaq yeməkləri" mağazasının interyerində icra etdiyi monumental tərtibat sqraffito texnikasında həll olunmuşdur.








Rəssamın bu bacarığı "Uşaq aləmi" mağazasından sonra, onun digər oxşar obyektlərin tərtibatına dəvət olunmasını şərtləndirmişdir. O, sənət dostu Hacıbala Rəcəbovla birlikdə "Ana və uşaq", "Bahar" və "Ceyran" kafelərinin (hamısı 1964-cü il) bədii tərtibatını həyata keçirmişdir. Bu monumental tərtibatlar da sqraffito-mozaika texnikasında yerinə yetirilmişdir.

O.Şıxəliyev və H.Rəcəbov 1966-cı ildə Bakı Dövlət Sirkinin foyesində mozaika-sqraffito texnikasında süjetli kompozisiya işləmişlər. Həmin obyektdə eyni vaxtda Rəhim Məmmədov və Tofiq Ağababayev də çalışmışdır. Onların eyni texnikada ərsəyə gətirdikləri "Azərbaycan sirki" adlı monumental kompozisiya foyedə yerləşdirilmişdir. Qaçan at üzərindəki qızın, "zorxana" pəhləvanlarının və döyüşən qoçların, eləcə də sirk artistlərinin çıxışını rövnəqləndirən musiqiçilərin təsvirlərinin məkana özünəməxsusluq bəxş etməsi danılmazdır.

Oqtay Şıxəliyev Hacıbala Rəcəbovla birlikdə daha bir monumental sənət nümunəsini – "Ulduzlara doğru" kompozisiyasını (1968) 18 saylı məktəbin fasadında işləmişdir. Pannonun kompozisiyasını o vaxtlar sovet incəsənətində geniş yayılmış kosmos mövzusu – gənc qızla oğlanın səmada günəşə doğru uçuşu təşkil edir. Məktəbin fasadının yenilənməsi zamanı bu əsər məhv edilmişdir. Rəssamların digər bir əsərinin taleyi də acınacaqlı olmuşdur. Onların "Qarabağ" mehmanxanasının qarşısındakı hovuzun tərtibatında (1973) işlədikləri orijinal kompozisiya ərazidə abadlıq işləri aparılarkən uçurulmuşdur.

İki sənətkarın monumental duyumunu bütün qabarıqlığı ilə əks etdirən əsərlərdən biri də onların Bakı Məişət Kondisionerləri Zavodunda yerinə yetirdikləri mozaik kompozisiyalar (1975) olmuşdur. Fasadda yer alan möhtəşəm mozaik pannolarda elmlə əməyin vəhdətinə bədii görkəm verən müəlliflər, ilk növbədə, kifayət qədər məsafədən belə seyr olunan mozaik görüntülərin bədii həllinin dekorativliyi sayəsində cəlbediciliyə nail ola bilmişlər.

Onların "Azərbaycan" Nəşriyyatının fasadında icra etdikləri tərtibat da orijinallığı ilə seçilir. Binanın girişini – portalını əhatə edən tərtibatın ümumi kompozisiyasını açılmış kitab şəklində həll edən müəlliflər bununla da məkanın funksiyasına müvafiq bədii həll forması tapmağa nail olmuşlar. Başqa sözlə desək, müasir biçimli qapının üzərindəki mozaik zolağı yan tərəflərdən hündürlüyü yeddi, uzunluğu isə on metrə çatan relyefli mozaik lövhələr – kitab səhifələri əhatələyir. Sol tərəfdə qəzet, sağ tərəfdə isə kitab çapının tarixi süjetli-rəmzi həllini tapmışdır. Sənətlərin sintezi problemini formaların bir-birinə nisbətinin düzgün tapılması ilə həll edən rəssamlar bunu mozaik kompozisiyanın binanın hündürlüyünə nisbəti timsalında uğurla gerçəkləşdirmişlər.

Oqtay Şıxəliyev və Hacıbala Rəcəbov "Azərneft"in Hesablama Mərkəzinin (1978), Dövlət Rayon Elektrik Stansiyasının (1981) mozaik tərtibatında da sənətlərin sintezinə nail olmuşlar. Yeni Bakı Ayaqqabı Fabrikinin fasad tərtibatını (1980) isə onlar Yusif Hüseynovla birlikdə həyata keçirmişlər.

Oqtay Şıxəliyev daha bir önəmli obyektin bədii tərtibatını həyata keçirmişdir. "Göy qurşağı" adlanan bu iri ölçülü – istehsalat prosesini əhatə edən mozaik panno (1987) Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun fasadını bəzəyir.

1988-ci ildə isə Oqtay Şıxəliyev keçmiş "Ozon" Zavodunun həyətində (indiki İctimai TV) mədəni tədbirlərin keçirilməsi üçün nəzərdə tutulmuş məkanın səhnəsinin mozaik bədii tərtibatını həyata keçirmişdir. "Yallı" adlanan bu kompozisiyanın məna-məzmun tutumu elə əsərin adının daşıdığı süjet, fiqur, atribut və müxtəlif ayrıntılarla zəngindir.



70-80 illərdə monumental sənət – mozaik pannoların yaradılması üzrə davamlı fəaliyyət göstərən rəssamlar kifayət qədər çox olmuşdur. Bu sırada Mirzəağa Qafarov, Arif Ağamalov, Rəhim Məmmədov, Hüseynağa Hüseynov, Rəşid Heydərzadə, Rasim Xələfov, Yaqub Mehdiyev, Şamil Buksayev, Həsənağa Ələsgərov, Sirus Mirzəzadə, Əhməd Əhmədov, Fikrət İbrahimov, Asəf Mehdiyev, Eldar Əhmədov və b. adlarını çəkmək olar. Bu yerdə deyək ki, Bakıda və bölgələrdəki mozaik kompozisiyaların yaradılmasında monumentalçı rəssamlarla yanaşı, çoxsaylı rəngkar, qrafik və heykəltəraş da iştirak etmişlər. Görkəmli fırça ustası Mikayıl Abdullayev, Altay Hacıyev, Cabbar Qasımov, İsmayıl Məmmədov, Hüseyn Haqverdi və digərlərinin bu sahədə fəaliyyətləri də dediklərimizi təsdiqləyir...

Sovet dönəminin yaddaqalan mozaik əsərləri sırasında SSRİ Xalq rəssamı, akademik Mikayıl Abdullayevin Bakı metrosunun "Nizami" stansiyasını bəzəyən əsərləri (1973-1979) özünəməxsus yer tutur. Nizami Gəncəvi "Xəmsə"sinin bədii təcəssümü kimi qəbul olunan və 18 pannodan ibarət olan bu tərtibat sayəsində Bakı metrosunun adının dünyanın ecazkar tərtibatlı metroları sırasında çəkilməsi də burada görülən işin yüksək estetikaya malik olduğunu təsdiqləyir. Salonun divarlarındakı mozaik əsərlərdə "Sirlər xəzinəsi"ndən "Sultan Səncər və qarı", "Bayquşların söhbəti" və "Kərpickəsənin nağılı", "Xosrov və Şirin"dən "Fərhad Bisutunda", "Xosrov və Şirin", "Fərhad və Şirin", "Leyli və Məcnun"dan "Məcnun və atası", "Leyli və Məcnun", "Leylinin qəbri üstündə", "Yeddi gözəl"dən "Simnarın faciəsi", "Bəhram və əjdaha", "Bəhramın hünəri" və "Fitnə", "İskəndərnamə"nin isə hər iki hissəsindən – "Şərəfnamə" və "İqbalnamə"dən beş səhnə – "İskəndər və çoban", "Yeddi alim", "Nüşabə və İskəndər", "Daranın ölümü", "Nəqqaş Mani" kompozisiyaları əks olunub.

Bakı metrosunun 1972-ci ildə istifadəyə verilən "Neftçilər" stansiyası da bədii tərtibatına görə diqqət çəkir. Bu stansiyanın geniş salonunun bədii görkəm almasında Mirzəağa Qafarov və Arif Ağamalovun böyük əməyi vardır. Buradakı altı iriölçülü kompozisiyada neft, elm və incəsənət mövzusu vəhdət şəklində öz həllini tapmışdır.

Metronun digər stansiyalarının mozaik tərtibatında Xəlil Əliyev ("Sahil", 1993; "N.Nərimanov", 1994; "28 May", 1990-cı illər), Rasim Xələfov ("Gənclik", 1967), Şükür Abbasov ("20 Yanvar, 1990-cı illər) və b. iştirak etmişlər.

Sovet dövrünün uğurlu mozaik pannoları sırasında Abdulla Quliyevin ("Qələbə", 1967), Arif Əzizin ("Dostluq", 1967), Tofiq Ağababayevin ("Bahar", 1970), Sirus Mirzəzadə, Rəşid Heydərzadə, Arif Ələsgərov və Elxan Tahirovun ("Səadət", 1977), Sirus Mirzəzadə, Rəşid Heydərzadə və Arif Ələsgərovun ("Fəhlə əlləri",1980), Rəşid Heydərzadənin ("Enerji",1986), Nüsrət Hacıyevin ("Neftin tarixi", 1979) Mirzağa Qafarov, Rasim Xələfov və Cabbar Qasımovun ("Sənaye", 1985) Elmas Hüseynovun ("Xəmsə", 1980-ci illər) işlərini də qeyd etmək olar.

Əlavə edək ki, Bakı ilə yanaşı, bölgələrimizin bədii-memarlıq həllində də tikililərin estetikasının yeni çalarlarla zənginləşməsində duyulası rolu olan monumental-dekorativ rəngkarlıqdan, o cümlədən də mozaik tərtibatlardan geniş istifadə olunmuşdur. Bu mənada monumentalçı rəssamlardan H.Ələsgərov, F.İbrahimov, Z.Mütəllibov, Y.Mehdiyev, H.Haqverdi, Ə.Əhmədov, A.Məmmədov, F.Abdullayev, V.Əhmədov, Ş.Şərifov, M.İmamverdiyev, S.Qurbanov, E.Əfəndiyev və başqalarının Sumqayıt, Quba, Naxçıvan, Gəncə, Cəlilabad, Yevlax, Qazax, Mingəçevir, Lənkəran, Şamaxı və Astarada yaratdıqları müxtəlif məzmunlu əsərlərinin adını çəkmək olar.

Yeri gəlmişkən, onu da deyək ki, rəssamlarımız sovet dönəmində və müstəqillik illərində dekorativ-tətbiqi sənətin bədii-texniki imkanlarından monumental sənətdə istifadə etməklə maraqlı əsərlər yarada bilmişlər. Bu mənada Altay Hacıyev, Hüseynəli Hüseynov, Arif Ağamalov, Ağasaleh Nuriyev, Mirzağa Qafarov, Sirus Mirzəzadə, Rəşid Bağırov, Zahid Hüseynov, Rahib Həsənov, Aydın Rəhimov, Rafiq İbrahimov, Səlhab Məmmədov, Eldar Əhmədov, Asəf Mehdiyev, Əli İbadullayev, Ənvər Qarayev, Rafiq Kərimov, Nicat Qocamanlı, Tamella Məmmədova, Məzahir Avşar, Adil Şıxəliyev, Ədhəm Yusifov, Eldar Məmmədov, Aydın Rzaquliyev, Tahir və Nəsrulla Sadıxovlar və başqa neçə-neçə sənətkarın keramika, şüşə, vitraj, şəbəkə və s. sənət sahələrinin estetikasını monumentallığa yönəldə bilməsini qeyd etmək istərdik...

**Ziyadxan Əliyev**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi — 15–18 mart

### Azərbaycan

**15 mart 1878** – Maarif xadimi, şair Şeyx Məhəmməd Hacı Abdulla oğlu Rasizadə (1878 – 24.12.1939) Naxçıvanda anadan olub. Hüseyn Cavidin böyük qardaşıdır. Firdovsinin "Şahnamə"sindən parçaları dilimizə çevirib.

**15 mart 1893** – Əməkdar incəsənət xadimi, aşıq Şəmşir (Şəmşir Qurban oğlu Qocayev; 1893-1980) Kəlbəcər rayonunun Dəmirçidam kəndində anadan olub.

**15 mart 1893** – Aşıq İslam (İslam Qara oğlu Yusifov; 1893 – 7.12.1968) Göyçə mahalının Basarkeçər bölgəsinin (indiki Ermənistanın Vardenis rayonu) Nərimanlı kəndində doğulub.

**15 mart 1897** – Xalq artisti Ağasadıq Ağaəli oğlu Gəraybəyli (1897 – 5.12.1988) Şamaxıda anadan olub. 1920-ci ildən Akademik Milli Dram Teatrının aktyoru olub. "Bəxtiyar", "O olmasın, bu olsun", "Qızmar günəş altında" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**15 mart 1911** – Əməkdar artist Əlihüseyn Əbdülrəhim oğlu Qafarlı (1911 – 5.10.1961) Bakıda doğulub. Gəncə teatrında, Azərbaycan Dövlət Musiqili Komediya Teatrında çalışıb.

**15 mart 1911** – Xalq artisti Əyyub Məmmədəli oğlu Haqverdiyev (1911 – 12.6.1996) Naxçıvanda doğulub. C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**15 mart 1914** – Xalq artisti Məmməd Allahverdi oğlu Quliyev (1914 – 11.9.2001) Naxçıvanda doğulub. Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktyoru olub.

**15 mart 1919** – Xalq artisti, məşhur xanəndə Hacıbaba Hüseynəli oğlu Hüseynov (1919 – 24.10.1993) Bakıda anadan olub. Muğamatdan dərs deyib, xanəndələr yetişdirib. Çoxsaylı təsniflərin müəllifidir, istedadlı qəzəlxan kimi tanınıb.

**15 mart 1923** – Tanınmış rəssam, Əməkdar incəsənət xadimi Nəcəfqulu Əbdülrəhim oğlu İsmayılov (1923-1990) anadan olub. Qrafika ustası kimi tanınıb, görkəmli şəxsiyyətlərin portretlərini, kitablara illüstrasiyalar çəkib.

**15 mart 1923** – Xalq artisti, aktyor Əkbər Hacı oğlu Qardaşbəyov (1923-2001) Naxçıvanda anadan olub. Naxçıvan Dövlət Musiqili Dram Teatrında çalışıb.

**15 mart 1932** – Əməkdar rəssam Sima Abbas qızı Ağayeva (1932-2021) anadan olub.

**15 mart 1941** – Şair, tərcüməçi, publisist İsa Mustafa oğlu İsmayılzadə (1941 – 14.7.1997) Gürcüstanın Qarayazı (indiki Qardabani) rayonunda anadan olub.

**15 mart 1941** – Şair, yazıçı, tərcüməçi Ələkbər Salahzadə (Ələkbər Baba oğlu Məmmədsalahlı; 1941 – 1.9.2013) Quba rayonunun Cimi kəndində anadan olub.

**15 mart 1949** – Xalq artisti, vokal ifaçısı Eldar Balağa oğlu Axundov (1949 – 17.9.2014) Lənkəranda doğulub. Müdafiə Nazirliyinin Nümunəvi Hərbi Orkestrinin solisti olub.

**16 mart 1882** – Xalq artisti, vokalçı Vasili Alekseyeviç Nikolski (1882-1967) anadan olub. Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib, 30 ilə yaxın (1952-ci ilədək) Opera və Balet Teatrının solisti olub.

**16 mart 1903** – Əməkdar mədəniyyət işçisi, dramaturq Qurban İsabala oğlu Musayev (1903-1982) Bakının Mərdəkan qəsəbəsində doğulub.

**16 mart 1906** – Əməkdar incəsənət xadimi, kamança ifaçısı, bəstəkar Qılman Balaməmməd oğlu Salahov (1906 – 12.10.1974) Bakıda doğulub. Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının rəhbəri (1938-1964) olub.

**16 mart 1914** – Əməkdar incəsənət xadimi, rejissor Niyaz Səttar oğlu Şərifov (1914 – 15.5.1982) Bakıda anadan olub. Musiqili Komediya Teatrında çalışıb.

**16 mart 1916** – Əməkdar incəsənət xadimi, bəstəkar Zakir Cavad oğlu Bağırov (1916 – 8.1.1996) Şuşada anadan olub. "Aygün" operası, "Kəndimizin mahnısı", "Qayınana" operettalarının müəllifidir, tamaşalara musiqi yazıb. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**16 mart 1940** – Cazmen, pianoçu, bəstəkar, caz-muğamın yaradıcısı, Əməkdar artist Vaqif Əziz oğlu Mustafazadə (1940 – 16.12. 1979) Bakıda doğulub. "Qafqaz" caz üçlüyü, "Sevil" vokal qızlar ansamblı, "Muğam" instrumental ansamblına rəhbərlik edib. Beynəlxalq müsabiqə və festivalların (Tallin, Tbilisi, Monte-Karlo) qalibi və laureatı olub.

**16 mart 2020** – Xalq artisti Rafael Məlik oğlu Dadaşov (4.1.1946 – 2020) vəfat edib. Akademik Milli Dram Teatrının səhnəsində, filmlərdə ("Bəxt üzüyü", "Mənim ağ şəhərim"), televiziya tamaşalarında yaddaqalan rollar oynayıb.

**17 mart 1905** – Şair, nasir, tərcüməçi Mikayıl Manaf oğlu Rzaquluzadə (1905 – 10.11.1984) anadan olub. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir. Rus və dünya ədəbiyyatından bədii tərcümələr edib.

**17 mart 1923** – Əməkdar artist Mirvari Balahacı qızı Novruzova (1923 – 20.3.1994) Bakıda doğulub. Akademik Milli Dram Teatrının aktrisası olub, filmlərdə, televiziya tamaşalarında çəkilib.

**17 mart 1932** – Fəlsəfə elmləri doktoru, Əməkdar elm xadimi Zümrüd Əliqulu qızı Quluzadə (1932 – 26.9.2021) anadan olub. Nizami, Nəsimi və Füzulinin fəlsəfi görüşlərinə dair tədqiqatların müəllifidir.

**18 mart 1916** – Şair, tərcüməçi Böyükağa Məmməd oğlu Qasımzadə (1916 - 29.8.1957) anadan olub. Rus ədəbiyyatından, M.Füzulinin "Yeddi cam" əsərini farscadan tərcümə edib.

**18 mart 1922** – Dramaturq Qeybulla İbadulla oğlu Rəsulov (1922 – 11.9.1988) Qax rayonunun İlisu kəndində doğulub. Pyesləri: "Günəşlə oyananlar", "Şəhərli oğlan", "Bir "Volqa" məhəbbət" və s.

**18 mart 1979** – Məşhur xanəndə, Xalq artisti Xan Şuşinski (İsfəndiyar Aslan oğlu Cavanşirov; 20.8.1901 – 1979) vəfat edib. "Şuşanın dağları", "Ay gözəl" və s. mahnı və təsnifləri bəstələyib.

### Dünya

**15 mart 1830** – Alman yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1910) laureatı Paul Heyze (Paul Johann Ludwig von Heyse; 1830-1914) anadan olub.

**15 mart 1937** – Rus yazıçısı Valentin Qriqoryeviç Rasputin (1937 - 14.3.2015) anadan olub. "Mariya üçün pullar", "Yaşa və unutma", "Yanğın" və s. romanların müəllifidir.

**16 mart 1839** – Fransız şairi, ədəbiyyat üzrə ilk Nobel mükafatı (1901) laureatı Rene Sülli-Prüdom (Rene François Armand (Sully) Prudhomme; 1839-1907) anadan olub.

**16 mart 1935** – Rusiyanın Xalq artisti Sergey Yurski (1935 – 8.2.2019) anadan olub. "Azərbaycanfilm"də "Dərviş Parisi partladır", "Şir evdən getdi" və s. filmlərdə çəkilib.

**16 mart 1940** – İtalyan kinorejissoru, dramaturq Bernardo Bertoluççi (Bernardo Bertolucci; 1940 – 26.11.2018) anadan olub.

**17 mart 1856** – Polyak əsilli məşhur Rusiya rəssamı, dekorativ pannolar və freskalar müəllifi Mixail Aleksandroviç Vrubel (1856-1910) anadan olub.

**17 mart 1901** – Amerika kino bəstəkarı, dirijor, aranjimançı Alfred Nyuman (Alfred Newman; 1901-1970) anadan olub. 9 dəfə "Oskar" laureatı olub.

**17 mart 1938** – Tatar-başqırd əsilli məşhur balet artisti Rudolf Hametoviç Nuriyev (1938-1993) anadan olub. 1961-ci ildə SSRİ-dən Britaniyaya mühacirət edib.

**18 mart 1842** – Fransız şairi, simvolizmin banilərindən biri Stefan Mallarme (Stéphane Mallarmé; 1842-1898) anadan olub.

**18 mart 1844** – Rus bəstəkarı, dirijor Nikolay Andreyeviç Rimski-Korsakov (1844-1908) anadan olub. "Sadko", "Qar qız", "Motsart və Salyeri", "Qızıl xoruz" operalarının, "Şəhrizad" simfonik süitasının müəllifidir.

**18 mart 1938** – Hind aktyoru, rejissor Şaşi Kapur (Shashi Kapoor; 1938 – 4.12.2017) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# Britaniya Baş nazirinin elçisi Milli İncəsənət Muzeyini ziyarət edib

Xəbər verdiyimiz kimi, Böyük Britaniya Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolson ötən həftə ölkəmizdə səfərdə olub. Səfər çərçivəsində o, bir sıra görüşlər keçirib, Böyük Britaniya ilə Azərbaycan arasında diplomatik münasibətlərin 30 illiyinə həsr olunan mərasimdə iştirak edib.




Martın 10-da Böyük Britaniya Baş nazirinin ticarət elçisi Azərbaycan Milli İncəsənət Muzeyini ziyarət edib. Baronessa Emma Nikolson, Britaniya Şurasının Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Francis Gardener-Trejo, Mədəniyyət Nazirliyinin Muzey, qalereya və sərgilər şöbəsinin müdiri Nərgiz Abdullayeva və muzeyin direktoru, Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyevin iştirakı ilə görüş keçirilib. Görüşdə Britaniya Şurası ilə nazirliyin uzun illərdir əməkdaşlıq etdiyi vurğulanaraq birgə həyata keçirilən tədbirlər, konfrans və təlimlər barədə xanım Nikolsona ətraflı məlumat verilib.

Direktor Çingiz Fərzəliyev qonaqları muzeyin müxtəlif tarixi dövrləri əks etdirən maddi mədəniyyət nümunələrinin yer aldığı zəngin ekspozisiyası, həmçinin "Mədəniyyətimizin incisi – Qarabağ", "Azərbaycan incəsənəti minilliklər boyu" və Xalq rəssamı Sirus Mirzəzadənin "Qadın ətri" sərgiləri ilə tanış edib.

Baronessa Emma Nikolson Azərbaycan Milli İncəsənət Muzeyi ilə Londonda fəaliyyət göstərən muzeylərin birgə əməkdaşlığı üçün muzey mütəxəssislərini ölkəsinə dəvət edib.

Çingiz Fərzəliyev xanım Emma Nikolsona Azərbaycan miniatür sənətindən bəhs edən nəfis tərtibatlı "Vərqa və Gülşa" kitabını hədiyyə edib.

# Vyanada Novruz bayramı münasibətilə konsert

Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Novruz bayramına həsr olunmuş tədbir keçirilib. Martın 11-də keçirilən tədbirə Avstriya paytaxtında akkreditə olunan diplomatik korpusun təmsilçiləri, ictimaiyyət nümayəndələri, bu ölkədə yaşayan həmvətənlərimiz qatılıblar.



AMM-in rəhbəri Leyla Qasımova çıxış edərək yaz fəslinin müjdəçisi olan Novruz bayramı haqqında qonaqlara məlumat verib. Bildirib ki, Novruz Azərbaycan xalqının ən qədim və əziz bayramı kimi bir sıra özünəməxsus adət-ənənələrə malikdir və ölkəmizdə hər il böyük şövqlə bayram edilir. Novruzda bütün incikliklər köhnə ildə qalır, küsülülər barışır, qohum və dostlar bir-birinə baş çəkir, insanlar əsl bayram əhvalında olurlar.

Diqqətə çatdırılıb ki, Novruz bayramı 2009-cu ildə Azərbaycanın və bu bayramı qeyd edən digər ölkələrin birgə təqdimatı ilə UNESCO-nun Qeyri-maddi mədəni irs siyahısına daxil edilib. 2010-cu ildə isə BMT Baş Assambleyası 21 mart tarixini Beynəlxalq Novruz Günü elan edib.

Tədbirdə Azərbaycan musiqiçiləri musiqi proqramı ilə çıxış ediblər. Xanəndələr Günay İmamverdiyeva, Babək Quliyev və Həzrət Əzizli Azərbaycan xalq mahnıları, muğam və təsniflərindən ibarət musiqi proqramı ilə çıxış ediblər, aşıq Samirə Əliyeva aşıq mahnıları səsləndirib. Onları Əməkdar artist Nərgiz Əliyeva (fortepiano), Rövşən Qurbanov (tar), Ceyhun Muradov (kamança) və Amil Mustafayev (nağara) müşayiət ediblər.

Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solistləri tərəfindən ifa edilən milli rəqslərimiz də alqışlarla qarşılanıb.

Konsertdən sonra qonaqlar ziyafətə dəvət edilib, onlara Azərbaycan şirniyyatlarından ibarət bayram hədiyyələri verilib.

# Azərbaycanın turizm imkanları Hindistanda tanıdılır

Hindistanın Mumbay şəhərində keçirilən "OTM Mumbai-2022" beynəlxalq sərgisində Azərbaycan da milli stendlə təmsil olunur. Dövlət Turizm Agentliyinin təşkilatçılığı ilə keçirilən sərgidə Azərbaycan Turizm Bürosu (ATB) və 10 yerli turizm şirkəti iştirak edir.




Sərgi ziyarətçilərinə Azərbaycanın müxtəlif bölgələrinin, o cümlədən işğaldan azad olunan ərazilərin turizm imkanları, Azərbaycana səfər imkanları, postpandemiya dövründə ölkədə səyahət qaydaları, yeni turizm məhsulları haqqında məlumat verilir. Martın 16-da başa çatacaq beynəlxalq sərgi çərçivəsində ATB tərəfindən ölkə turizminin təbliği və təşviqi ilə bağlı B2B görüşlər də təşkil edilib.

ATB-nin baş icraçı direktorunun müavini Bəhruz Əsgərov Hindistan bazarının Azərbaycan üçün prioritet bazarlardan biri olduğunu, hindistanlı turistlərin istirahətlə yanaşı işgüzar turizm, toy və digər turizm növlərinə üstünlük verdiklərini diqqətə çatdırıb. O, cari il fevralın 15-dən Hindistanın hava yolu ilə Azərbaycana giriş-çıxışına icazə verilən ölkələr sırasında olduğunu, bunun qarşılıqlı səfər saylarının artmasına müsbət təsir edə biləcəyini deyib.

"OTM Mumbai-2022" sərgisində 50-dən çox ölkə təmsil olunub.

# Bakıda VII Britaniya Film Festivalı başa çatıb

Bakıda sayca 7-ci dəfə keçirilən Britaniya Film Festivalı bu il Azərbaycan ilə Böyük Britaniya arasında diplomatik əlaqələrin qurulmasının (11 mart 1992-ci il) 30-cu ildönümünə həsr olunmuşdu.




Xəbər verdiyimiz kimi, 3-15 mart tarixini əhatə edən festival "British Council", Böyük Britaniya Səfirliyi və Azərbaycan Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə gerçəkləşib. Filmlər Nizami Kino Mərkəzi və YARAT Müasir İncəsənət Məkanında nümayiş olunub.

Nizami Kino Mərkəzində festivalın açılışında çıxış edən səfir Ceyms Şarp deyib: "Mən ürəkdən sevinirəm ki, "British Council"ın daha bir neçə mükəmməl Britaniya filmini Azərbaycana gətirməsini dəstəkləyə bilmişik. Builki festivalın mövzusu iqlim dəyişikliyidir və biz filmlərin auditoriyanı əyləndirəcəyinə, maarifləndirəcəyinə və insanlara ilham verəcəyinə ümid edirik".

Festivalın ilk filmi "Oskar" mükafatlı aktyorlar Cim Brodbent və Helen Mirrenin rol aldıqları "Hersoq" retro-komediyası olub.

Bundan əlavə, Nizami Kino Mərkəzində "Şlyapalı kişi", "Suvenir. II hissə" və "Qaynama nöqtəsi" filmləri nümayiş olunub. İngilis kinosu həvəskarları YARAT Müasir İncəsənət Məkanında "İnsanlar iqlim dəyişikliyinə qarşı" və "Sərhədlərin məhvi: planetimiz haqqında elm" sənədli filmlərini də izləmək imkanı əldə ediblər. Sonuncu film tamaşaçıları təkcə planetimizin sabitliyi üçün deyil, həm də bəşəriyyətin gələcəyi üçün keçməməli olduğumuz planetar hədləri kəşf etmək üçün səyahətə çıxarıb.

Yeri gəlmişkən qeyd edək ki, martın 9-da YARAT Müasir İncəsənət Məkanında Britaniya Kino və Televiziya Sənəti Akademiyasının (BAFTA) 2021-ci il üzrə qısametrajlı filmlər proqramında yer almış 7 qısametrajlı ekran əsəri (3-ü animasiya filmi) də təqdim olunub.

**Lalə Azəri**

# Moskva Beynəlxalq Film Festivalı təxirə salınıb

21-28 aprel tarixində keçirilməsi nəzərdə tutulan 44-cü Moskva Beynəlxalq Film Festivalı Rusiyanın Ukraynaya qarşı apardığı müharibənin doğurduğu vəziyyətlə əlaqədar 2022-ci ilin ikinci yarısına təxirə salınıb.

Məlum olduğu kimi, müharibə səbəbindən ABŞ və Avropa İttifaqı başda olmaqla bir sıra ölkələr Rusiyaya qarşı genişmiqyaslı sanksiyalar tətbiq ediblər. Həmçinin bir çox ölkələrdən Rusiyaya aviauçuşlar dayandırılıb.

Festivalın təşkilatçılarının yaydığı məlumatda da qeyd olunur ki, müxtəlif ölkələrdən kino xadimləri mövcud vəziyyətdə Moskvaya gələ bilməyəcəklərini bildiriblər. Öz növbəsində təşkilatçılar daha əvvəl iştirakını təsdiqləyən kinorejissorlara minnətdarlıq edərək festivalın bu il baş tutacağına ümidlərini ifadə ediblər: "Ümidvarıq ki, hamınız bu ilin sonunda Moskvaya yeni əsərlərinizlə gələcəksiniz...".

**Xanım Rəsul**

# Qərbin kino aləmində "Köpəyin hökmranlığı"

## "Qızıl qlobus"dan sonra daha iki mükafat qazanıb

Britaniya Kino və Televiziya Sənəti Akademiyası (BAFTA) martın 13-də növbəti laureatlarının adlarını açıqlayıb. Qaliblər BAFTA-nın 75-ci – yubiley mərasimində elan edilib.

Yeni Zelandiyalı rejissor Ceyn Kempionun "Köpəyin hökmranlığı" ("The Power of the Dog") filmi əsas mükafata ("Ən yaxşı film") layiq görülüb.

Aktyor Vill Smit ən yaxşı kişi roluna görə BAFTA mükafatına layiq görülüb. 53 yaşlı sənətçiyə mükafatı "Kral Riçard" filmində tennisçilər Serena və Venus Vilyamsın atası rolu qazandırıb. Britaniyalı aktrisa Coanna Skanlan rejissor Alim Xanın "Sevgidən sonra" ("After Love") filmində Meri Hüseyn roluna görə "Ən yaxşı qadın rolu" mükafatını qazanıb.

Xatırladaq ki, Ceyn Kempionun "Köpəyin hökmranlığı" filmi bir qədər əvvəl Amerika audiovizual sənət dünyasının bu il üçün ilk mükafatına – "Ən yaxşı dramatik film" nominasiyası üzrə "Qızıl qlobus"a layiq görülmüşdü. Hollivud Xarici Jurnalistlər Birliyinin təsis etdiyi mükafat Qərb kino aləminin zirvəsinə – "Oskar"a doğru yolda mühüm mərhələ sayılır.



Lakin "Köpəyin hökmranlığı"nın "Oskar" yolunda nailiyyəti bununla bitmir. Yeni Zelandiyalı rejissorun kinodramı ABŞ və Kanadanın kino tənqidçilərinin ən böyük qurumunun ("Critics Choice Association") mükafatını da qazanıb. 27-ci "Tənqidçilərin seçimi" mükafatları da martın 13-də TBS telekanalı vasitəsilə Los-Anceles və Londondan canlı yayımlanan mərasimdə elan edilib. "Köpəyin hökmranlığı"nın "Tənqidçilərin seçimi"ndə də qalib olması onun "Oskar" heykəlciyini də əldə edəcəyinə artıq şübhə yeri qoymur. Qeyd edək ki, ekran əsəri ABŞ-ın Montana ştatında ranço sahibi olan xaraktercə fərqli iki qardaş haqqındadır.

**Cavid**

Xronoqraf

# Tarixdə bu gün

## Zamanın səhifələrində qalan olaylar, faktlar...

### 141 il əvvəl...

**13 mart 1881-ci ildə** Rusiya "Narodnaya volya" ("Xalqçılar") inqilabçı-terror təşkilatının üzvləri Çar II Aleksandrı qətlə yetiriblər. 1855-ci ildə taxta çıxan II Aleksandra qarşı 10 dəfə sui-qəsd təşkil edilmişdi. Halbuki o, mütərəqqi çar kimi tarixə düşmüş, taxta çıxandan sonra dekabristlərə, Polşa üsyanının iştirakçılarına amnistiya vermiş, təhkimçilik hüququnu ləğv etmiş (1861), dövlət idarəçiliyində islahatlar aparmışdı.

### 101 il əvvəl...



**16 mart 1921-ci ildə** Rusiya ilə Türkiyə arasında dostluq və qardaşlıq haqqında Moskva müqaviləsi bağlanıb. İki dövləti uzun illərin qarşıdurma müstəvisindən çıxaran müqavilədə qarşılıqlı öhdəliklər yer almışdı. Sənəddə Naxçıvan Azərbaycanın ərazisi kimi təsdiqlənir və Türkiyə bölgənin qarantı kimi çıxış edirdi. Moskva müqaviləsinin müddəaları əsasında 1921-ci il oktyabrın 13-də Qars müqaviləsi (Rusiya, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan) imzalandı.

### 84 il əvvəl...

**13 mart 1938-ci ildə** SSRİ hökuməti bütün milli respublikaların məktəblərində rus dilinin icbari tədris olunması barədə qərar verib. Milli dilin məhdudlaşdırılması və ruslaşdırma siyasəti kütləvi repressiyalarla müşayiət olunurdu.

### 54 il əvvəl...

**16 mart 1968-ci ildə** ABŞ qoşunlarının Cənubi Vyetnamda apardığı işğalçılıq müharibəsi zamanı Sonqmi kəndi əhalisi ilə birlikdə yandırılıb. Kənddə əksəriyyəti qoca, qadın və uşaq olmaqla 567 nəfər öldürülmüşdü. Rəsmi məlumata görə, amerikalı hərbçilərin törətdiyi bu qırğın barədə ABŞ rəhbərliyi bir il sonra xəbər tutmuşdu.

### 31 il əvvəl...

**17 mart 1991-ci ildə** SSRİ-də ittifaqın saxlanılması məsələsi ilə bağlı ümumittifaq referendumu keçirilib. Rəsmi məlumatlara görə, referendumda iştirak etmiş 146 milyon nəfərdən 112 milyonu (76 faiz) SSRİ-nin saxlanılmasına səs vermişdi. Amma bundan bir neçə ay sonra ittifaq canını tapşırdı.

### 27 il əvvəl...

**15-17 mart 1995-ci ildə** Bakıda Xüsusi Təyinatlı Polis Dəstəsinin (XTPD) qiyamı baş verib. Qiyamçılara XTPD-nin rəhbəri, daxili işlər nazirinin müavini Rövşən Cavadov başçılıq edirdi. Prezident Heydər Əliyev məsələni dinc yolla sahmanlamaq üçün bir sıra addımlar atdı, o cümlədən qiyamçıların silahı yerə qoyacaqları təqdirdə məsuliyyətə cəlb olunmayacaqları barədə fərman imzaladı. Amma nəticə hasil olmadı. Martın 17-də qiyam zəruri güc tətbiq edilməsi ilə yatırıldı.

### 14 il əvvəl...



**14 mart 2008-ci ildə** BMT Baş Assambleyasının 62-ci sessiyasında "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət haqqında" qətnamə qəbul olunub. Qətnamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək verilir, Ermənistan qüvvələrinin işğal olunmuş ərazilərdən çıxarılması tələb edilirdi.

**Hazırladı: V.Orxan**

Mədəniyyət Nazirliyinin rəhbərliyi və kollektivi Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarovaya həyat yoldaşı, Əməkdar müəllim, Prezident təqaüdçüsü

**Əzizov Ruhulla Nəcəf oğlunun**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin direktoru Sevinc Mikayılova Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudovaya

**anası Cəmilə xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

***

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Teatrşünaslıq kafedrasının müdiri Aydın Talıbzadə və kafedranın müəllim heyəti universitetin rektoru, professor Ceyran Mahmudovaya

**anası Cəmilə xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**Allah rəhmət eləsin.**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 796
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641